www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5-6 mart 2016-cı il Şənbə № 52 (6373) Qiymıəti 60 qəpik

Xəbər

**Aeroport yolunda zəncirvarı qəza - 21 yaralı**

yazısı səh.2-də

Gündəm

**Prezident gömrükdə islahatlar aparılmasına dair sərəncam verdi**



Qubad İbadoğlu: "Kompleks yanaşma baxımından son sərəncam əvvəlkilərdən fərqlənir"

yazısı səh.5-də

**Əli Kərimli dəstəsinin facebook davasında yeni pərdə-bu dəfə deputat hədəfdə...**

yazısı səh.4-də

**Cəbhədə güclü atışma; düşmən itki verdi**

yazısı səh.2-də

**Parlament və Hesablama Palatası qənaət rejiminə keçdi**

yazısı səh.5-də

**Dünya mediasında Qarabağda müharibə haqda yazıların çoxalmasının sirri**

yazısı səh.6-də

**Bakı ilə Tiflis arasında mühüm anlaşma - SOCAR Gürcüstandakı qaz bazarını qorudu**

yazısı səh.9-da

**Dolların məzənnəsi 1,61 manatı ötdü**

yazısı səh.11-də

**Antiböhran koalisiyasının debat təklifinə Müsavat, MŞ və YAP-dan cavab**

yazısı səh.6-da

**Nikaha girmək istəyən 6228 nəfərdə talassemiya aşkar edilib**

yazısı səh.2-də

**Qarabağın qaytarılmasını istəyən erməni ölkəsindən qaçdı - ölüm təhdidi**

yazısı səh.13-də

**İki uşağı xəstə olan Qarabağ əlili kömək istəyir**

yazısı səh.12-də

## Azərbaycan uğrunda geosiyasi rəqabət şiddətlənir

# PUTİNİN EMİSSARLARI BAKIYA NİYƏ GƏLİR - PƏRDƏARXASI

Roqozinin ardınca Rusiya XİN başçısının müavini Qriqori Karasin də ölkəmizə gəlir; Bakının Türkiyə və Qərblə yaxınlaşma xəttini gücləndirməsi Moskvada təlaş yaradıb; Kreml Azərbaycandan nə istəyir?..



yazısı səh.8-də

## Üç icra başçısından sonra işdən qovulacaq rayon rəhbərlərinin şok siyahısı

Prezidentin növbəti günlərdə daha bir neçə başçı haqda sərəncam imzalayacağı gözlənilir; hakimiyyət xalqla kobud davranan, mərkəzi hakimiyyətin tapşırıqlarını sabotaj edən məmurlarla vidalaşmaq qərarına gəlib

yazısı səh.3-də



*Arzu Nağıyev:*

**"Daha modern insanlar, xaricdə oxumuş tələbələr icra başçısı ola bilər"**

yazısı səh.7-də



**Oqtay Əsədovdan Xarici İşlər Nazirliyinə etiraz**

yazısı səh.10-da



**Yavər Camalovun vəzifəli işçisi özünü körpüdən atmaq istədi**

yazısı səh.12-də

## Prezident qadınları təbrik etdi



**Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib.**

**Dövlət başçısının təbrikində deyilir:**

- Hörmətli xanımlar! Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram. Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlayıb, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olub.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapıb. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanıblar.

İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz. Bayramınız mübarək olsun!".

## Yerdən ən uzaq qalaktika kəşf edilib

**Teleskop Habbl (Hubble) Yer kürəsindən rekord həddə uzaqda yerləşən qalaktika kəşv edib. NASA agentliyi cümə axşamı Yer kürəsindən 13,5 milyard işıq ili uzaqlığında yerləşən CNZ-11 (GN-Z11) qalaktikasının fotosunu yayıb. Bu, bugünədək qeydə alınmış qalaktikalardan ən uzağıdır.**

NASA-nın mütəxəssisləri onun Yerdən nə qədər uzaq olduğunu göstərmək üçün qarafiki baxışla belə bir animasiya ediblər.

Belə ki, "Böyük Ayı Bürcü"ndən baxanda parç görsənir, sonra isə görüntünün dəfələrlə böyüdülməsi nəticəsində ekranda CNZ-11 qalaktikası peyda olur.

Astronomlar deyir ki, qalaktikanın kəşfi kainatın uzaq keçmişinə baş vurmaq və onun yaranışı barədə daha çox bilmək baxımından çox vacibdir (AzadlıqRadiosu).

## Bakıda 9 avtomobil toqquşdu; 21 yaralı

**Bakıda ağır yol-nəqliyyat hadisəsi baş verib. Suraxanı Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Aeroport yolunda "Daewoo" markalı 160 saylı marşrut avtobusla 90 EJ 930 dövlət nömrə nişanlı "Toyota Prado", 99 EE 706 dövlət nömrə nişanlı "Chevrolet", "VAZ 2109" və daha bir neçə maşın toqquşub.**

Baş verən zəncirvari qəzada 21 nəfər xəsarət alıb.

Bu barədə APA-ya Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər. Onlardan 1 nəfər əməliyyat olunur, 2 nəfər isə reanimasiya şöbəsinə yerləşdirilib.

Hadisə zamanı ölən olmayıb. Qəzada 9 avtomobilin iştirak etdiyi bildirilir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Cəbhədə güclü atışma: düşmən itki verdi

**Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qarşısı alınıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən axar.az-a verilən məlumata görə, martın 3-dən 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttində mövqelərimizə yaxınlaşaraq ərazini minalamağa cəhd göstərib.**



Silahlı Qüvvələrimizin bölmələrinin əvvəlcədən düşməni aşkar etməsi, görülən qabaqlayıcı tədbirlər və qarşı tərəfə atəş gücü vasitəsilə təsirdən sonra düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Hadisə yerində düşmənə məxsus iki ədəd mina, iki ədəd qumbara və istifadə etmək istədikləri qana bulaşmış ləvazimatlar aşkar olunub.

Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib.

## Akif Çovdarovun həbs müddəti artırılıb

**Səbayel Rayon Məhkəməsində ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb.**

"Report"un əldə etdiyi məlumata görə, A.Çovdarov barəsində həbs-qətimkan tədbirinin müddəti dörd ay artırılıb.

Qeyd edək ki, A.Çovdarov 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham olunur.

Bundan başqa, onun barəsində Cinayət Məcəlləsinin 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə də cinayət işi açılıb.

O, ötən ilin noyabr ayında həbs edilib. Həmin vaxt Səbail Rayon Məhkəməsi onun barəsində dörd ay müddətində həbs qətimkan tədbiri seçilib.

## Sürət həddini aşmağa görə cərimə və ballar dəyişdi



**Martın 1-dən İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər qüvvəyə minib. AzNews.az CBC-yə istinadən xəbər verir ki, bir sıra mühüm yenilyi özündə əks etdirən dəyişikliklər həm ümumi məsələləri, həm də yol hərəkəti iştirakçılarının inzibati məsuliyyətini əhatə edir.**

Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov: "Yol hərəkəti qaydaları əleyhinə törədilən xətalar üzrə bu gündən etibarən İnzibati Xətalar Məcəlləsinin 327-ci maddəsindən başlayaraq tətbiq ediləcək. Yəni, əvvəlki illər və günlərdə törədilən xətalarla bağlı İnzibati Xətalar Məcəlləsinin 151-ci maddəsindən başlayaraq tətbiq edilirdisə, mart ayının 1-dən etibarən 327-ci maddədən başlayaraq sənədləşmə tərtib ediləcək".

Səbirsizliklə gözlənən yeniliklərdən biri sürət həddinin aşmasına görə tətbiq edilən cərimənin və balların dəyişməsidir.

"Sürət həddinin aşılması 10 və 20 km/saat olarsa, 10 manat məbləğində cərimə nəzərdə tutulub, 21-40 arasında sürət həddinin aşılmasına görə 2 bal və 50 manat məbləğində nəzərdə tutulub. Bu, 41-60 km/saat olarsa, 3 bal və 150 manat məbləğində cərimə nəzərdə tutulub. Eyni zamanda 61 km/ saat sürət həddindən daha yüksək sürət həddi ilə hərəkət edənlər isə 4 bal və 250 manat məbləğində cərimə olunacaqlar".

Daha bir yenilik icbari siğortası olmayan və ya sığortasının vaxtı keçən nəqliyyat vasitələrinin mərkəzi informasiya sistemində qeydiyyata salınaraq, onların sahiblərinə elektron protokolun tərtib olunmasıdır.

Hüquqşünas Ərşad Hüseynov: "DYP-nin kameralarının bu patrul avtomobillərin içindəki kamerada ola bilər. Adi küçələrdəki də kameralar. Kameranın qarşısından hərəkət edən avtomobil görünür, onun qeydiyyat nişanı əsasında orada yoxlanılır ki, bunun icbari sığortası yoxdur və dərhal elektron protokol tətbiq olunur çox sadə".

Elektron protokollar sürücü və sərnişinlərin təhlükəsizlik kəmərini istifadə etmədiyi təqdirdə də tərtib olunub yaşadıqları ünvana göndəriləcək. Amma bu məsələdə müəyyən çətinliklərlə üzləşmək olar, cünki sərnişinlərin şəxsiyyətini müəyyən etmək heç də asan məsələ deyil: "Sərnişin bağlamayanda, elektron protokol tətbiq etmək mümkün olmayacaq, çünki kamera vasitəsilə sərnişini eyniləşdirmək mümkün deyil. Kamera vasitəsilə avtomobilin nömrəsinin hesabına sürücünü eyniləşdirmək olur. Siz təsəvvür edin ki, kamera sərnişini görür ki, kəməri bağlanmayıb, amma sərnişin kimdir - bunu müəyyən etmək mümkün deyil. Bunu ancaq sonra araşdırma aparıb müəyyən etmək olar".



## Nikaha girmək istəyən 6228 nəfərdə talassemiya aşkar edilib

**"2015-ci ilin iyun ayının 1-dən bu günə kimi (9 ay ərzində) nikaha girmək istəyən 107500 şəxs müayinədən keçmiş və onların 6228-də talassemiya daşıyıcılığı aşkar edilib. İl ərzində isə 180 min nəfərin müayinəsi nəzərdə tutulur".**

BAKU.WS məlumat verir ki, bunu B. Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva deyib. O bildirib ki, son illər qan xəstəliklərində artım müşahidə olunmur:

"Dünya statistikasına baxsaq görərik ki, hər il leykozla xəstələnmə 100 min nəfərə 9-13 nəfərdir. Amerikada bu göstərici daha yüksəkdir. Orada 100 min nəfərə 30 xəstələnmə halı təşkil edir. Bizdə isə hər 100 nəfərə 4-5 xəstələnmə kimi qeyd olunur. Xəstəliyin aşkar olunması xəstəliyin artması deyil. Əslində şəraitin yaxşılaşdırılmasıdır ki, xəstəlik ilkin mərhələdə aşkarlanır ",-deyə Zöhrə Əlimirzəyeva bildirib.

## Zaqatalada əməliyyat - qadağan olunmuş dini toplantı keçirilirmiş

**Zaqatalada əməliyyat keçirilib. Musavat.com-un Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, daxil olan məlumat əsasında Zaqatala RPŞ əməkdaşları tərəfindən martın 3-də saat 22 radələrində şəhər sakini İsrafil İsayevin evində qadağan olunmuş dini təriqətlərdən birini təbliğ etməsi, habelə rayon sakinləri İsrafil Şamxalovun, Etibar Babayevin, İlham Hüseynovun, Əfqan Hüseynovun, qardaşı Sahibin, Abubakar Ömərlinin, Məhəmməd Buğluyevin və Vüsal Atayevin dini toplantı təşkil etməsi müəyyən edilib.**

Həyata keçirilmiş tədbirlərlə İ.İsayevin evindən 41 ədəd dini kitab aşkar edilərək götürülüb. Kitablar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə təhvil veriləcək.

RPŞ-yə gətirilərkən Ə.Hüseynov və qardaşı Sahib polis əməkdaşlarının tələblərinə tabe olmayıb.

Onlar barəsində İnzibati Xətalar Məcəlləsinin 310.1-ci maddəsi (polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) ilə inzibati protokol tərtib edilib, digərlərinin izahatları alındıqdan sonra buraxılıblar.

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Üç icra başçısından sonra işdən qovulacaq rayon rəhbərlərinin şok siyahısı

## Prezidentin növbəti günlərdə daha bir neçə başçı haqda sərəncam imzalayacağı gözlənilir; hakimiyyət xalqla kobud davranan, mərkəzi hakimiyyətin tapşırıqlarını sabotaj edən məmurlarla vidalaşmaq qərarına gəlib

**Azərbaycan prezidentinin martın 3-ü və 4-də imzaladığı sərəncamlarla Cəbrayıl rayonunun icra başçısı Mahmud Quliyev, Laçının icra başçısı Akif Səlimov və Salyan Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimov vəzifələrindən azad edildilər. Ölkə başçısının iki gün ərzində verdiyi sərəncamlar ciddi müzakirələrə səbəb olub.**

Məsələyə ekspertlərin ikili baxışı formalaşıb. Bir qisim hesab edir ki, hakimiyyət siyasi islahatlara, kadr dəyişikliklərinə start verib. Digər bir qisim iddia edir ki, iqtidar xalq arasında etimadını itirmiş icra başçılarını vəzifədən çıxarmaqla ictimai rəyi öz xeyrinə dəyişməyə çalışır.

Bu fikirlərdə müəyyən qədər həqiqətlər var. Belə ki, zaman-zaman hər üç icra başçısı barəsində ictimaiyyət arasında çoxsaylı tənqidi fikirlər səslənib. Yanvar ayında rayonlarda sosial tələblərlə başlayan aksiyalara bəzi Cəbrayıl sakinləri də qoşuldu. Rayonun icra başçısı Mahmud Quliyevin həmin aksiya zamanı vətəndaşları təhqir etməsi ölkədə ciddi rezonans doğurdu. Sözügedən səhnənin sosial şəbəkədə, ardınca isə saytlarda yayılması M.Quliyevi hətta iqtidar deputatlarının qınağına tuş etdi. Görünür, M.Quliyev bu ehtiyatsız ifadələrin güdazına gedib. Sosial tələblərlə aksiya keçirən vətəndaşların qəzəbini yumşaltmaq əvəzinə, sabiq başçı tam əksini etdi - vətəndaşı söyüb təhqir etdi. Bunun daha ağır nəticəsi ola bilərdi. Ortada örnək var - Quba və İsmayıllı hadisələri məhz icra başçısının və onun qardaşı oğlunun əhalini söyməsi ilə başlamışdı...

Salyanın icra başçısı Tahir Kərimovun da adı çoxdan qara siyahıya düşmüşdü. Onun Salyanda vətəndaşlarla kobud rəftarı, yerli iş adamlarını incitməsi mediada tez-tez xəbər formasında ictimailəşirdi. Bu yaxınlarda T.Kərimovun sosial şəbəkələrdə bir fotosu yayılmışdı. Orta məktəb şagirdləri onun başının üzərində gül tutur və icra başçısı o çələngin altından keçir... Bəlkə də bu foto T.Kərimovun işdən çıxarılmasına bir bəhanə olub.

**Salyandan seçilən iqtidaryönlü deputat Fəzail Ağamalı ölkə başçısının ötən ilin sentyabrından başlayaraq, sistemli islahatlara önəm verdiyini bildirdi:** "İdarəetmə sahəsində bu cür islahatlar davam edəcək. Potensialı tükənən, ölkə başçısının çağırışlarına cavab verməyən, sözün həqiqi mənasında xalqa və dövlətə sədaqətlə xidmət etməyən, imkanları məhdudlaşan şəxslər idarəçilik sistemindən uzaqlaşdırılacaq. Onlar daha üstün keyfiyyətlərə malik olan kadrlarla əvəz olunacaqlar. Bu cür prinsiplərlə ölkə prezidentinin fəaliyyəti davam edir. Bütün bunlar ölkə başçısının həyata keçirdiyi islahatların tərkib hissəsi kimi qiymətləndirilməlidir".

**Politoloq Qabil Hüseynli ölkədə ən ciddi narazılığın icra başçılarından olduğunu söylədi:** "İcra başçıları rayonlarda elə mühit yaradıblar ki, nə əhalinin zəruri yaşayış səviyyəsinə imkan verirlər, nə şikayətlərinə baxırlar, nə də qurucuiluq işləri ilə məşğul olurlar. Ölkə prezidenti icra başçılarına rayonlarda kiçik sənaye müəssisələrinin yaradılması ilə bağlı tapşırıq verib. Amma indiki icra başçılarının belə potensiallarının olduğunu düşünmürəm. Onların maddi imkanları çox olsa da, vətənpərvərlik hissləri az olduğuna görə belə addımlar atmırlar. Hazırda ölkədə struktur islahatları aparılır. Bununla paralel kadr islahatları da gedir. Bunu siyasi islahatlar kimi də qəbul etmək olar. Amma bir şərtlə ki, onların yerinə gətirilən şəxslər ciddi surətdə ölçüb-biçilməlidirlər. Onların savadlı, vətənpərvər əhval-ruhiyyədə olan şəxslər olmalarını dərindən öyrənmək lazımdır. Çünki əvvəlkilərin yol verdikləri nöqsanlar təkrar olunmamalıdır. Vəzifəyə təyin olunan şəxsin üzərində ciddi nəzarət olmalıdır".



Razim Məmmədov



Xaləddin İsgəndərov



Ceyhun Cəfərov



Ramiz Yediyarov

**Politoloq çıxarılan icra başçılarının xalq arasında nüfuzlarını tamam itirdiklərini qeyd etdi:** "Bu icra başçıları xalq arasında sevilmirdilər. Cəbrayılın icra başçısının söyüş videosu, çıxarılandan sonra mətbuata verdiyi açıqlamalardan görürsən ki, bu şəxs adekvat deyil. Böyük bir vəzifə sahibi öz vətəndaşı ilə söyüşlə danışır. Mən düşünürəm ki, bu cür kadrların vəzifələrindən çıxarılmalarında xalqın əhval-ruhiyyəsini tənzimləmək elementləri var. Xalqın sevmədiyi şəxsləri çıxarmaq vətəndaşın arzularını yerinə yetirmək deməkdir. Ona görə də bu sərəncamlar cəmiyyətin əhval-ruhiyyəsinə təsir edən amillər kimi qəbul edilməlidir. Proses davam etsə, düşünürəm ki, cəmiyyət bunu razılıqla qarşılayacaq".

Bəs proses davam edəcəkmi? Prezident İlham Əliyev xalqın qəzəbini, narazılığını qazanmış başqa icra başçılarını da işdən qovacaqmı?

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, daha bir neçə icra başçısı bugünlərdə vəzifədən çıxarılacaq. Bu sırada ilk adları gələn İH başçıları aşağıdakılardı. Binəqədinin İH başçısı Xaləddin İsgəndərov, Şirvanın İH başçısı Mərdan Camalov, Kürdəmirin İH başçısı Ceyhun Cəfərov, Gədəbəyin icra başçısı Ramiz Yediyarov, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov, Yasamalın icra başçısı İbrahim Mehdiyev, Lənkəranın İH başçısı Taleh Qaraşov, Masallı RİH başçısı Rafil Hüseynov. Siyahı uzana da bilər, bəzi istisnalar da mümkündür...

❑ **Cavanşir ABBASLI**

# Həbsdəki siyasi fəalların Novruz ümidləri...

## Rauf Mirqədirovun anası fəryad qopardı; **Rəfiqə İsayeva:** "Oğlumun tutulması Yunuslara görə oldu"



**Novruz bayramında siyasi məhbusların azadlığa buraxılması ümidləri artıb. Əfv Komissiyasının üzvlərinin, eləcə də hüquq müdafiəçilərinin açıqlamaları bu ay gözlənilən əfvin əvvəlkilərdən fərqlənəcəyini düşünməyə əsas verir.**

Buna səbəb Azərbaycanla Qərb arasındakı münasibətlərin sürətlə müsbətə doğru getməsi, AŞ PA sədri Pedro Aqramuntun Bakı səfəri və Azərbaycan prezidentinin bu ayın sonlarında ABŞ-a nüvə sammiti çərçivəsində gözlənilən səfəridir.

Ancaq elə siyasi məhbuslar var ki, onların azadlığa çıxacaqları ümidləri yoxdur. Belə məhbuslardan biri "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovdur. Belə ki, jurnalistin hökmündən verilən şikayətlə bağlı martın 3-də keçirilən Apelyasiya Məhkəməsi ayın 16-na təxirə salınıb. Bu isə prosesin Novruza qədər bitməyəcəyi anlamına gəlir.

Jurnalistlə bağlı yaranan müəmmalardan biri də onun da aid olduğu eyni iş üzrə həbs edilən, ötən ilin noyabr-dekabr aylarında şərti azadlığa buraxılan hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun onu müdafiə etməmələridir. Hazırda Yunuslar susqun mövqe sergiləyirlər. Təsadüfi deyil ki, mətbuatdan qaçan ər-arvad azadlığa çıxdıqdan sonra Mirqədirovun məhbəs həyatı ilə vidalaşması üçün bir fikir belə səsləndirməyiblər. Halbuki eyni maddə üzrə ittiham edildikləri 274 (Dövlətə xəyanət) maddəsində əsas fiqurlar Yunuslar idi.

**Mirqədirovun anası Rəfiqə İsayeva "Yeni Müsavat"a açıqlamasında göz yaşları içərisində oğlunun Novruzda da həbsdə qalacağı ilə barışdığını söylədi:** "Raufun proseslərinə bizi buraxmırlar. Bir ana kimi oğlumun bu bayramda evdə olmasını istəyirdim. Artıq onun həbsdə qalmasından tükənmişəm. Düşünürdüm ki, oğlum Apelyasiya Məhkəməsində buraxılacaq. Amma Novruzda Raufun evdə olmayacağını indidən hiss edirəm. Proses nəyə görə 16-na təxirə salındı, hələ də anlaya bilmirəm. Oğlumun azad olunması üçün bir ana fəryadı ilə hayqırıram. Bütün xalqıma səslənirəm ki, oğlum azad olunsun. Onu nə qədər 4 divar arasında saxlamaq olar? Axı onun təqsirkar olmadığı sübut olundu".

**Vicdan məhbusunun anası Yunusların onun oğlunu müdafiəsiz qoymalarından da gileyləndi:** "Oğlumun tutulması Yunuslara görə oldu. Düşüncəm belədir. Rauf onlarla Ermənistana getmə maddəsi ilə tutulmuşdu. Amma Yunuslar 3 aydan artıqdır ki, azad olunublar. Onların Raufa qarşı münasibətləri heç yerdə yoxdur. Rauf onlara görə həbs edilibsə, onlar da oğlumu müdafiə etməlidirlər. Amma onlar belə etmədilər. Ümid edirəm ki, onlar da öz fikirlərini bildirəcəklər".

**Digər siyasi məhbus ailələrinin də əfvlə bağlı fikirlərini aldıq.**

Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı **Nigar Yaqublu** əfv ümidlərinin olmadığını söylədi..

**REAL sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova hər zaman əfvə ümid etdiklərini qeyd etdi:** "Novruzda əfv olarsa, çox yaxşı olar".

**Müsavatçı gənclər Fərəc və Sirac Kərimli qardaşlarının atası Raqif Kərimli bildirdi ki, Azərbaycanla Qərb arasındakı münasibətlərin istiləşməsi onda ümidlər yaradıb:** "Siyasi məhbuslar ölkəmiz üçün ciddi probleme çevrilib. Xaricdə Qarabağ məsələsini heç bu qədər qabartmırlar. Bu dəfə nəyinsə olacağına ümid edirəm".

**NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova proseslərı diqqətlə izlədiklərini qeyd etdi:** "Son ana qədər nəyəsə ümid etməyin tərəfdarı deyiləm. Əfv olanda baxarıq, kimlər azad olunacaq. Həbsdəkilər də belə düşünür. Əfv olmadan gözləntilərim yoxdur".

**Azadlığa çıxmasına 10 ay qalmış Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı Novruzda sevinəcəklərinə inanmır:** "Heç bir ümidim yoxdur. Gedişat bunu göstərsə də, cəmiyyət ümid etsə də, daim hakimiyyət süpriz qərarlar verir. Yeni ildə kimlərinsə azad olunacağı gözlənildi, amma heç kim azad olunmadı. İndi də belə süpriz gözləyirəm. Nemət verilmiş illəri sona qədər çəkəcək".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016



# Əli Kərimli iqtidara necə şükür elətdirir...

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

## AXCP-nin qozşünas “alim” sədri yol verdiyi biabırçılığı ört-basdır etmək üçün zombilərini yenidən səfərbər edib...

**Əslində hamımıza bəllidir ki, ölkəyə xaricdən gətirilən bir çox malların qiyməti gömrükdə dəqiq yazılmır. Yəni azaldılır. İşbazlar, monoplistlər bunu daha artıq fayda götürmək, vergidən yayınmaq üçün edirlər. Məsələn, bir malın qiyməti 10 manatdırsa, onu 3-4 manata yazdırır biriləri. Amma bir iş adamı ilə dəqiqləşdirmişəm, bunu elə necə gəldi həyata keçirmirlər. Məsələn, tutaq ki, bir nəfər ölkəyə Belarusdan yağ gətirir, orada kilosunu bizim manata çevirəndə 3 manata alıb, istəyir ki, gömrükdə bu məbləği 1 manat 80 qəpik göstərsin. Bunun üçün Belarusdan keyfiyyətsiz bir qutu yağ alır, kilosu 1 manat 80 qəpikdən, sənəddə bu öz əksini tapır, 3 manatlıq yağları da onun gözünə qatıb bütünlüklə 1 manat 80 qəpik göstərirlər. Amma mümkün deyil ki, məsələn, Bakıda 25 manata satılan bir malın gömrükdə qiyməti 75 qəpik yazılsın. Ən yaxşı halda alış qiymətini 3-4 manat civarında göstərirlər, 75 qəpik isə sadəcə buna görə tutulan rüsumdur...**

Ancaq dahi “demokrat”, hakimiyyətə gəlməyə iddia edən, son olaraq özünü qozşünas “alim” kimi də təsdiqləmiş Əli Kərimli rəqəmlərin içərisində itib-batıb. Əlbəttə, adamın ətrafında zombilər olanda, komandasında məsləhətləşməyə, informasiya almağa normal, savadlı adamlar qalmayanda ortaya belə biabırçı mənzərə çıxır: Əli Kərimli kimdənsə eşitdiyi, dəqiqləşdirə bilmədiyi bir açıqlama yayıb ki, bəs qoz ləpəsi ölkəyə 75 qəpiyə gətirilir, əhaliyə 25 manata satılır. Vəssalam, bununla da qaragüruhun çığırtıları Əli Kərimlinin facebookdakı bazarını bürüdü, “ay haray, tez olun, qoymayın, ucuz ləpədən qalmadı”...

Burada haşiyə çıxaraq, bir lətifə ərz edim: məktəbə komissiya gəlir, ekspert şagirdlərdən birini qaldırır ayağa, onun hazırlıq səviyyəsini yoxlamaq üçün soruşur ki, 7 vur 7, neçə edir? Şagird deyir, 777. Yoxlama aparan ekspert müəllimə qıyqacı baxır, çıxır gedir. Bərk əsəbiləşən müəllim şagirdi çıxarır lövhənin qarşısına, qulağını darta-darta deyir, ay bala, 7 vur 7 49 edir, özünü öldürsən, 79 edər, lap özünü öldürsün 149 edər, amma ta 777 eləməz axı...

İndi Əli Kərimlinin “75 qəpiyə ləpə” məsələsi də buna dönüb. Bir neçə iqtisadçı, hansı ki, onlar da müxalif düşərgədə təmsil olunur, bu yaxınlara qədər elə Əli Kərimli də onları tərifləyirdi, dedilər ki, ay “lider”, bu, mümkün deyil, rəqəm azaldılar, amma 75 qəpik olmaz axı. Vəssalam, bununla da Kərimlinin dəstəsi normal şəkildə polemika açanları söyməyə, təhqir etməyə başladı. Ki, bəs niyə Əli Kərimlini tənqid edirsiniz, o, doğru deməsə də susun, ağzınızı açmayın. Ə.Kərimli zombilərini adamların üstünə necə qısqırtdısa, facebookda toz-duman qalxdı, qarşılarına kim çıxdısa söydülər, yamanladılar, təhqir etdilər, satqın, xəyanətkar, “iqtidara işləyən” adlandırdılar. Bilə-bilə ki, Əli Kərimli yalan danışır, bu hoqqanı çıxardılar ki, onu tənqid etməyin. Köhnə adətləridir bunların; kim Əli Kərimlinin hətta debil fikirlərini bölüşmürsə, “satqındır”... Amma indi yaranmış mənzərə maraqlıdır: hər kəs - son günlərədək Əli Kərimlini müdafiə edənlər, hətta onun iç üzünü xeyli öncələr açdığımıza görə bizi tənqid atəşinə tutanlar özləri artıq bizim hələ neçə il öncə gəldiyimiz qənaəti bölüşdülər. Status yazdılar, açıqlama verdilər ki, Əli Kərimli iqtidara şükür elətdirir, biz hökumətə illərdir dözmüşük, amma iraq olsun, bu adam hakimiyyətə gələrsə, dərhal ölkədən gedəcəyik. Çünki onun zombiləri əlinə silah alıb bir kəlmə tənqid söyləyənləri güllələyərlər. Bəli, bu, məhz belədir, adamların mahiyyəti budur...

Hələ illər öncə tam səmimiyyətlə demişdik ki, Əli Kərimli kimi birinin iraq olsun, hakimiyyətə gəlməyindənsə, mövcud iqtidarın qalması yaxşıdır, faydalıdır. Adam bunu vaxtilə bizi qınamağa çalışan öz dostlarına, yaxınlarına da sübut etmiş oldu.

Tənqidə düzümlülük, fərqli fikrə tolerant yanaşma demokratiyanın əlifbasıdır, özülüdür. Özünü demokrat adlandıran AXCP sədrində isə bu keyfiyyətlər yoxdur. Hakimiyyəti məhz tənqidə düzümsüzlükdə, alternativ fikrə hörmətlə yanaşmamaqda ittiham edən bir siyasətçinin özü hər addımda bu testdən keçə bilmir. Bu qədər radikallıq, inkarçılıq, şərçilik, tənqidi özünə yaxın buraxmamaq demokratiya ilə tərs mütənasibdir.

Əli Kərimli və onun başçılıq etdiyi siyasi banda əlində silah öldürməyə adam gəzən gözünü qan örtmüş qatilə bənzəyir. Bunların hələ adam öldürmək üçün əllərində imkanları yoxdur. Amma insanların ideyalarını, fikirlərini, mövqelərini qətl edirlər. Bu mənzərəni isə xalq və beynəlxalq təşkilatlar böyük narahatlıqla seyr edir. Bu xəstə təfəkkürlü, psixoloji problemləri olan birini nə xalq hakimiyyətə gətirər, nə Qərb.

Heç Allah da bu cür bədniyyətli bəndələrinə şans tanımaz...

# Əli Kərimli dəstəsinin facebook davasında yeni pərdə - bu dəfə deputat hədəfdə...

## Vicdan məhbusunun həyat yoldaşı: “Əli Kərimli hakimiyyətə gəlsə, mühacirət edərəm”

**AXCP sədri Əli Kərimli və REAL-ın rəhbərlərindən olan, iqtisadçı Natiq Cəfərli arasında söz savaşı səngimək bilmir. Hər şey iqtisadçının Ə.Kərimlini yazdığı məlum statusa görə tənqid etməsi ilə başlayıb.**

Azərbaycanda insanlara şər-böhtan atmaqda, insanları qaralamaqda ad çıxarmış Ə.Kərimli tərəfdarları sosial şəbəkələrdə N.Cəfərli başda olmaqla, REAL-çıların üzərinə ən ağır küçə söyüşləri ilə hücuma keçiblər. Cəbhəçilər indiyə qədər istifadə etdikləri ən asan taktikaya yenə də üstünlük veriblər. İqtisadçı və onu müdafiə edən REAL-çıları Ə.Kərimli dəstəsi “hakimiyyətə işləməkdə”, “hakimiyyətin sifarişini yerinə yetirməkdə” suçlayırlar. Maraqlıdır ki, REAL-çılar prosesi dayandırmağa çalışsalar da, kərimçilər dayanmaq bilmir. Səbəb isə çox sadədir. AXCP sədrini tənqid edən istənilən şəxs cəbhəçilərin gözündə xain, satqın olur. Ən yaxın dostlar belə... Kərimli tərəfdarları nə edirsən et, bircə Kərimliyə toxunma, prizmasından çıxış edirlər. Çoxsaylı saxta profillər arxasında gizlənən cəbhəçilər sosial şəbəkələri söyüş məkanına çeviriblər.

**Bütün bunlara dözməyən deputat Fazil Mustafa da facebook profilində məsələyə münasibət bildirib:** “Bu debil, qaragüruh sürüsü adını qoyub ki, Natiq Cəfərli hakimiyyətə işləyir. Mən elə bilirdim ki, bunlar əsasən bizim haqqımızda belə böhtanları yaymaqla məşğuldurlar, sən demə, kim ki nəyəsə irad bildirirsə, o zaman dərhal hakimiyyətə işləmək versiyası gündəmə gəlir. Statuslarında İsa Qəmbərin də, Rauf Arifoğlunun da hakimiyyətə işləməsi barədə əminliklə yazılmış rəyləri oxuyuram. Ancaq ümumiləşdirmə aparanda görürsən ki, ”hakimiyyətə işləmək" meyarı kimi bu cahillər bizim üçün Milli Məclisdə təmsil olunmağı əsas götürürlər. İndiyədək nə Natiq Cəfərli, nə İsa Qəmbər, nə də Rauf Arifoğlu şəxsən Milli Məclisdə təmsil olunmayıblar. 1995-2000-ci illərdə AXCP adı ilə Milli Məclisdə təmsil olunanların hansı tamaşada hansı rol oynadığını bu yaxınlarda YAP iqtidarının təmsilçiləri yerinə və ünvanına qədər açıqladılar. “Hakimiyyətə işləyən” REAL təşkilatının rəhbəri illərdir həbsdədir, hakimiyyətlə savaşan AXCP təşkilatının rəhbərinin illərdir həbs olunmama qarantiyası var... Ona görə də el arasında əbəs yerə demirlər ki, varlının fahişəsi, kasıbın da xəstəsi bilinməz. İfadəni üzürlü sayın, yerinə düşdüyünə görə yazmaq məcburiyyətində qaldım".

Bu statusdan sonra cəbhəçilər hücum hədəfini dəyişərək, F.Mustafanın üzərinə gediblər. Deputat açıq şəkildə təhqirlərə məruz qalıb.



**Razi Nurullayev:** “REAL-a qarşı çirkin kampaniyanı Kərimli təşkil edir”



**Natiq Miri:** “O, cəmiyyəti müxalifətdən iyrəndirir...”

Zaman-zaman AXCP barədə yazdıqlarımız hər keçən gün öz yerini tutmaqdadır. Xüsusilə REAL-la yaranan qarşıdurma illər öncə dediklərimizi əyani şəkildə ortaya qoydu. Belə ki, vaxtilə REAL-la bəzi qurumlarda təmsil olunan, Natiq Cəfərli başda olmaqla, REAL rəhbərliyini hakimiyyəti tənqid edən tərəf kimi göstərən AXCP indi bu şəxsləri bir anda hakimiyyətlə əməkdaşlıqda ittiham edirlər. Mahiyyət ortadadır...

**Bütün bunlar özlərini yeganə müxalif qurum kimi qələmə verən AXCP-nin demokratik düşərgəyə vurduğu zərbənin göstəricisidir. İş o yerə çatıb ki, həbsdəki vicdan məhbusu Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova twitter səhifəsində cəbhəçilərin iyrəncliklərindən bezdiyini belə dilə gətirib:** “Əli Kərimli hakimiyyətə gəlsə, mühacirət edərəm...”

**Yeni AXCP-nin sədri Razi Nurullayev “Yeni Müsavat”a açıqlamasında Kərimli dəstəsi barəsində zamanında dediyi sözlərin nöqtəsindən vergülünə qədər həyata keçdiyini qeyd etdi:** “Azərbaycan siyasətində söyüşün yolverilməz olduğunu, belə halların başında Əli Kərimlinin dayandığını açıq şəkildə dediyimiz zamanlarda bizə haqq qazandıranlar olsa da, heç bir siyasətçi özündə cürət tapıb, fikrini ortaya qoymadı. Bizi açıq müdafiə edən də olmadı. Çünki onlar Kərimlinin ətrafına yığdığı ”zombi"lərin söyüşündən çəkindilər. Bu gün bir partiya rəhbəri, iqtisadçı təhqir olunursa, sabah hər kəs bu halla üzləşə bilər. Ona görə də Azərbaycan siyasətini bu cür insanlardan təmizləmək yolunu tutmuşuq. Hər kəsdən dəstək gözlədik, amma gəlmədi. Bizə dəstək olmayan şəxslər bu gün Kərimlinin “zombi”lərinin təhqirləri ilə üzləşirlər. REAL Azərbaycanda öndə olan müxalif qurumlardan biridir. Bu hərəkatın rəhbəri İlqar Məmmədov neçə ildir məhbus həyatı yaşayır. O, bir çoxlarından fərqli olaraq, tutduğu yoldan dönmədiyinə görə həbsdədir. Amma onun hərəkatına qarşı çirkin kampaniyaya start verənlər azadlıqdadır. Kərimli və ətrafındakılar daha yaxşı həyat yaşayırlar, daha yaxşı maşınlarda gəzirlər, daha çox siyasi divident qazanıblar, amma İlqar Məmmədov qədər siyasi iş görməyiblər. REAL-a qarşı indiki çirkin kampaniyanı birbaşa Kərimli və ətrafı təşkil edir. Sanki Kərimlinin dediyi bir cümləni belə tənqid etmək olmaz, bu sözlər qızıldan qiymətlidir. Bu cür yanaşma bütləşmə, şəxsiyyətəpərəstişdir. Bu hallar olan yerdə heç bir siyasi əqidədən söhbət gedə bilməz".

**Politoloq Natiq Miri bildirdi ki, bu cür davranışların hakimiyyətin dəyirmanına su tökdüyünü Əli Kərimlidən yaxşı bilən yoxdur:** “Əli Kərimli cəmiyyəti müxalifətdən iyrəndirir. Cəmiyyətdə fikir formalaşdırır ki, ondan başqa müxalifət yoxdur. Buna görə də cəmiyyətin AXCP deyilən qurumdan heç bir gözləntisi yoxdur. Ə. Kərimli əgər belə çirkin kampaniyaların hakimiyyətə sərf etdiyini anlayırsa, demək, bu, hakimiyyətə işləməkdən başqa bir şey deyil. İndiki vəziyyətdə cəmiyyəti belə məsələlərlə iyrəndirmək kimin maraqlarına uyğundur? Belə həssas, islahatların aparılmasına ehtiyac yarandığı bir vaxtda ictimai diqqətin başqa bir səmtə yönləndirilməsi kimə xidmət edə bilər? Cəbhəçilər bu suala cavab versinlər. Onda biləcəklər ki, yaratdıqları vəziyyət hakimiyyətə xidmət edir. Belə çıxır ki, bu situasiyanın yaranmasının sifarişçisi hakimiyyətdir. Pulu kim verirsə, musiqi sifarişini də o verir. REAL-ı hakimiyyətə işləməkdə suçlamaqdansa, ortaya real iş qoymaq lazımdır. Amma biz bunu görmürük. Əvəzində iyrəndirici proseslər görürük. Sosial şəbəkələrdə Kərimli tərəfdarları daha aktiv görünürlər. İstənilən insanı çox asanlıqla qaralaya bilirlər. 20 ildən artıqdır bu proses gedir”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016

# Prezident gömrükdə islahatlar aparılması tapşırığını verdi

## Qubad İbadoğlu: “Kompleks yanaşma baxımından son sərəncam əvvəlkilərdən fərqlənir”



**Prezident İlham Əliyev gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda Nazirlər Kabinetinə tapşırılıb ki, məcburi sertifikatlaşdırılmalı olan malların siyahısının azaldılması məqsədi ilə “Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında” NK-nın 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarının yeni redaksiyasını iki ay müddətində prezidentlə razılaşdırmaqla təsdiq etsin.**

Həmçinin NK baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodları göstərilməklə, vahid siyahısını iki ay müddətində müəyyən edib bu barədə prezidentə məlumat verməli və müvafiq tədbirlərin maliyyələşməsini müəyyən olunmuş qaydada təmin etməlidir.

**Dövlət Gömrük Komitəsinə isə tapşırılır ki, məmur-vətəndaş təmasının minimuma endirilməsi və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə Gömrük Məcəlləsində nəzərdə tutulmuş bütün bəyannamələrin gömrük orqanlarında elektron formada qəbulunu iki ay müddətində təmin etsin;**

- Elektron xidmətlər göstərilməsi ilə əlaqədar olaraq, müvafiq sahələrdə ayrı-ayrı dövlət orqanları ilə qarşılıqlı elektron informasiya mübadiləsinin həyata keçirilməsini təmin etsin;

- Gömrük nəzarətinin səmərəliliyini artırmaq məqsədi ilə gömrük sistemində mövcud olan müasir texnologiya və avadanlıqdan istifadə etməklə, gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sistemini təkmilləşdirsin;

- Gömrük sərhədindən mal dövriyyəsini sürətləndirmək məqsədi ilə beynəlxalq təcrübədə qəbul olunmuş və AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalentlik prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlar (şəhadətnamələr), sənədlər əsasında malların gömrük sərhədindən keçirilməsinə şərait yaradılmasını və aidiyyəti dövlət orqanlarının bu barədə elektron formada məlumatdırılmasını təmin etsin;

- Vaxt itkisinin aradan qaldırılması məqsədi ilə qısa idxal bəyannaməsinin və ona əlavə olunmuş baytarlıq, fitosanitar, gigiyenik və ya digər sertifikatın (şəhadətnamənin) və mülki dövriyyəsi məhdudlaşdırılmış malların dövriyyəsinə verilən xüsusi icazənin əvvəlcədən yoxlanılmasını və gömrük nəzarətinin həyata keçirilməsinin nəticəsi əsasında malların gömrük ərazisinə buraxılışını həyata keçirsin;

- AR ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yük axınlarının cəlb edilməsi, o cümlədən yükdaşımaların keyfiyyətinin yüksəldilməsi, yüklərin çatdırılma müddətinin azaldılması üçün müvafiq tədbirlər görsün;

- Risklərin azaldılması, beynəlxalq ticarət-təchizat zəncirinin fəaliyyətində təhlükəsizliyin təmin edilməsi, xarici ticarətin asanlaşdırılmasına şərait yaradılması məqsədi ilə gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, oradan çıxması və tranziti ilə bağlı əldə edilən məlumatların başqa ölkələrin gömrük və digər səlahiyyətli dövlət orqanları ilə elektron informasiya mübadiləsinin həyata keçirilməsi üçün əlavə tədbirlər görsün;

- Xarici ticarətin gömrük statistikasını beynəlxalq təcrübəyə və standartlara uyğun inkişaf etdirmək, onun düzgünlüyünü və operativliyini təmin etmək məqsədi ilə xarici iqtisadi fəaliyyətin mal nomenklaturasında malların növlərə görə ətraflı təsvir edilməsini və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının beynəlxalq əsaslarına edilən dəyişiklik və əlavələrin, bu əsasların təfsiri üzrə beynəlxalq şərhlərin (qeydlərin), qərarların gömrük işində operativ tətbiqini təmin edən mexanizmlər hazırlasın.

Sərəncamda qeyd edilir ki, Gömrük Komitəsi Ədliyyə Nazirliyi ilə razılaşdırmaqla, iki ay müddətində gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi ilə bağlı təkliflərini; malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-vətəndaş münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi məqsədi ilə gömrük orqanlarına əvvəlcədən elektron formada qısa idxal bəyannaməsini təqdim etmək yolu ilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılmasını təmin edəcək Qaydaların layihəsini və şəffaflığın artırılması məqsədi ilə gömrük qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb prezidentə təqdim etsin.

Sərəncamda həmçinin qeyd edilir ki, DGK Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Dövlət Miqrasiya Xidməti ilə razılaşdırmaqla, iki ay müddətində Dövlət Gömrük Komitəsinin məlumat bazasının “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə inteqrasiya edilməsi, Dövlət Gömrük Komitəsinin qeyd olunan sistemin “Sərhədkeçmə” informasiya resursundan istifadəyə buraxılışının təmin olunması və sistem daxilində DGK, Dövlət Sərhəd Xidməti və Dövlət Miqrasiya Xidməti arasında məlumat mübadiləsinin aparılması məqsədi ilə müvafiq normativ hüquqi aktların layihələrini, dövlət sərhədinin buraxılış məntəqələrindən şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və digər əmlakın buraxılışı həyata keçirilərkən sərhəd və gömrük orqanlarının səlahiyyət bölgüsü barədə təkliflərini hazırlayıb prezidentə təqdim etsin.

Sərəncama görə, DGK və Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Gömrük Məcəlləsinin 244.2-ci maddəsinə uyğun olaraq gömrük borcu üzrə ödənişlərin həyata keçirilməsi məqsədilə gömrük sərhəd buraxılış məntəqələrində poçt şöbələrinin yaradılmasını altı ay müddətində təmin etməlidirlər.

Kənd Təsərrüfatı və Səhiyyə nazirlikləri isə ziyanverici orqanizmlərin və xəstəliklərin ölkə ərazisinə yayılmasına yol verməmək məqsədilə beynəlxalq təcrübədə qəbul edilmiş risklər əsasında müvafiq qoruyucu tədbirlər müəyyən etməli; ərazisində xüsusi təhlükəli xəstəliklərin baş verməsi qeydə alınan xarici ölkələr və eləcə də karantin nəticəsində idxalı qadağan olunmuş mallar barədə məlumatların qabaqcadan operativ surətdə DGK-ya ötürülməsini təmin etməlidirlər.

Ekspertlər bildirir ki, bu sərəncamda göstərilən məsələlər kiçik və orta sahibkarlığın inkişafına daha ciddi təsir göstərəcək. Uzun müddət idi ki, gömrük sistemindəki arzuolunmaz durumun aradan qaldırılması məsələsi gündəmdə idi. Ekspertlər bildirir ki, son sərəncam bu sistemdə vəziyyəti köklü surətdə dəyişəcək.

**Prezidentin sərəncamını qiymətləndirən iqtisadçı alim Qubad İbadoğlu bunu müsbət qiymətləndirib:** “Bu sərəncam bir daha göstərdi ki, həqiqətən də hazırda iqtisadiyyatın ən ağrılı yerlərindən biri mövcud gömrük sistemidir. Belə olmasa idi, prezident səviyyəsində son 3 ayda xarici ticarət və gömrük sistemi ilə bağlı 5 sənəd imzalanmazdı. Təəssüflər olsun ki, DGK prezident sərəncamından irəli gələn tapşırıqların yerinə yetirilməsi əvəzinə əsas diqqətini dövrü mətbuatda dərc olunan yazıları arqumentsiz cavablandırmağa yönəldib.

Kompleks yanaşma baxımından son sərəncam əvvəlkilərdən fərqlənir və bu sənəddə Azərbaycan Demokratiya və Rifah Hərəkatının təqdim etdiyi “İqtisadiyyatda əsas və təxirəsalınmaz tədbirlər Paketi”ndə olan bir sıra tədbirlər də yer alıb. Eyni zamanda mənim dəfələrlə qaldırdığım gözgü metodologiyası vasitəsilə gömrük statistikasının təkmilləşdirilməsinə dəstək olaraq, xarici ticarətin gömrük statistikasını beynəlxalq təcrübəyə və standartlara uyğun inkişaf etdirmək, onun düzgünlüyünü və operativliyini təmin etmək bir vəzifə kimi DGK-nın qarşısına qoyulub. Bu sərəncamdan irəli gələn tədbirlərin həyata keçirilməsi xüsusilə də böhran dövründə çox vacibdir. Lakin yaxşı olardı ki, onların icrasını qiymətləndirmək və nəticələrini ölçmək üçün indikatorlar da müəyyənləşdirilməlidir. Belə indikatorların siyahısına gömrük sərhədinə girən maşınların neçə dəqiqə ərzində oranı tərk etmək, elektron xidmətlərdən istifadə edənlərin statistik sayı, iş adamının təqdim etdiyi sənədlərin sayı və onlara sərf etdiyi vaxtın müddəti və digərləri aid edilə bilər. Bu, son nəticədə gömrük sərhədində mal dövriyyəsinin necə sürətləndiyini və vaxt itkisinin necə aradan qaldırılmasını qiymətləndirməyə imkan verər".

❑ **Hazırladı: M.MAHRIZLI**




# Parlament və Hesablama Palatası qənaət rejiminə keçdi

## 2016-cı il üçün hər iki qurumun xərcləri azaldıldı

**Bu il üçün Milli Məclis və onun aparatının saxlanması üçün ayrılan vəsaitin həcmi 51 021 manat və ya 0,22% azaldılır. Bu, “Milli Məclisin 2016-cı il üçün xərclər smetası haqqında” qərarda dəyişiklik edilməsi ilə bağlı layihədə öz əksini tapıb.**

Dəyişikliklərə əsasən, 2016-cı ildə MM və onun aparatının saxlanması üçün 22 mln. 694 min 934 manat ayrılacaq. Qeyd edək ki, 2016-cı il dövlət büdcəsində MM və onun aparatının saxlanması üçün 22 mln. 745 min manat 955 manat vəsait nəzərdə tutulmuşdu. Sənəddə 2016-cı ildə ezamiyyə xərclərinin də azaldılması planlaşdırılır. Belə ki, MM-n 2016-cı ilin xərclər smetasında ezamiyyə xərcləri 163 min 900 manat və ya 14,77% azaldılaraq 1 mln. 110 min man. təşkil edəcək.

Xatırladaq ki, 2016-cı ilin xərclər smetasında ezamiyyə xərcləri 1 mln. 273 min 900 manat səviyyəsində təsdiq edilmişdi.

Bundan başqa, MM-in 2016-cı ilin xərclər smetasında idarənin saxlanılması ilə bağlı xərclər 1 mln. 033 min 700 manatdan 930 min 330 manata, dəftərxana və təsərrüfat xərcləri 346 min 300 manatdan 311 min 670 manata, mətbəə xərcləri 220 min manatdan 198 min manata, idarənin digər xərcləri 467 min 400 manatdan 420 min 660 manata, nəqliyyat xidmətləri haqqının ödənilməsi xərcləri 667 min 613 manatdan 637 min 362 manat, digər nəqliyyat xidmətləri xərcləri 300 min manatdan 270 min manata, kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi xərcləri 838 min 900 manatdan 822 min 700 manata, istehlak mallarının və materiallarının alınması 1 mln. 528 min manatdan 1 mln. 375 min 200 manata, yumşaq inventar və xüsusi geyimlərin alınması xərcləri 30 min manatdan 27 min manata, inventarın alınması xərcləri 200 min manatdan 180 min manata, avadanlığın alınması xərcləri 318 min manatdan 286 min 200 manata, digər alışlar və xidmətlər üzrə xərclər 980 min manatdan 882 min manata, abadlaşdırma xidmətləri haqqının ödənilməsi xərcləri 25 min manatdan 22 min 500 manata, sair xərclər 146 min manatdan 136 min manata, əsas vəsaitlərin alınması xərcləri 700 min manatdan 630 min manata, nəqliyyat vasitələrinin alınması xərcləri 250 min manatdan 225 min manata, digər maşın və avadanlıqlar üzrə xərcləri 450 min manatdan 405 min manata və qeyri istehsal aktivləri üzrə xərcləri 20 min manatdan 18 min manata qədər azaldılıb.

Bunlardan fərqli olaraq, MM-in xərclər smetasına daxil olan yanacaq və sürtgü materiallarının alınması üzrə xərcləri 1,7 dəfə və ya 269 min 749 manat artırılaraq 637 min 362 manat təşkil edəcək.

Beləliklə, 2016-cı il üçün MM-in xərclər smetasına daxil olan xərclər 976 min 212 manat azaldılıb. Yalnız yanacaq və sürtgü materiallarının alınması üzrə xərcləri 269 min 749 manat artırılıb ki, bunun hesabına 2016-cı il üçün MM-in xərclər smetasına daxil olan xərcləri ümumilikdə 706 min 463 manat azaldılıb.

Məsələ MM-n plenar iclasında müzakirə edilib və qəbul olunub.

Hesablama Palatasının 2016-cı il üçün xərclər smetası isə 47 026 manat və ya 1,24 faiz azaldılıb. Bununla da 2016-cı il üçün Hesablama Palatasının xərclər smetası 3 mln. 778 min 468 manat təşkil edəcək.

❑ **ELŞAD**

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016

# Dünya mediasında Qarabağda müharibə haqda yazıların çoxalmasının sirri

**Son günlər Rusiya və ABŞ mediasında Qarabağ müharibəsinin başlayacağı barədə yazıların çoxaldığı müşahidə olunur. Xəbərlər və şərhlər şəklində dərc olunan yazılarda Azərbaycanla Ermənistanın iqtisadi imkanları, ordularının gücü müqayisə edilir, bölgədə yaranmış geosiyasi situasiyanın Qarabağda müharibəni tətiklədiyi qeyd olunur.**

Məsələn, ABŞ-ın nüfuzlu “The Washington Times” nəşrinə görə, Rusiya Ermənistanı Türkiyə ilə münaqişəyə sürükləyir, bu durum isə Qarabağda da müharibəni alovlandıracaq: "Təhlükə var ki, Moskvanın az öncə atdığı addımlar Qafqazda etnik müharibəni qızışdırsın. Xüsusən də söhbət Azərbaycanla Ermənistanın Dağlıq Qarabağ uğrunda mübarizəsindən gedir. Görünür, Rusiya indi öz təsirini “üzə çıxarmaqla” Ermənistandan tələb edir ki, Türkiyənin düz yaxınlığında öz hərbi mövcudluğunu genişləndirsin".

“Eurasiyanet” nəşri isə yazıb ki, əgər Ermənistan Rusiyanın Türkiyəyə qarşı mübarizəsində iştirakda naz eləsə, Rusiyanın Qarabağda rıçaqları var ki, donmuş münaqişəni Azərbaycanın xeyrinə həll eləsin.

Rusiya baş nazirinin müavini, hərbi sənayeyə cavabdeh olan Dmitri Roqozinin Bakı səfərinə diqqət çəkən “Ruskaya planeta” portalı isə yazır ki, 2010 - 2014-cü il dövründə Rusiya və Azərbaycan 4 milyard dollar məbləğində bir neçə böyük razılaşma imzalayıb. Bakı silahların geniş spektrini almağa qərar verib: zenit-raket kompleksləri (S-300PMU-2, “Tor-2ME”), özüyeriyən artilleriya quraşdırmaları (“Msta-S”), ağır oqnemyot sistemləri (“TOS-1A”), yaylım atəşinin (“Smerç”) reaktiv sistemləri, tanklar (T-90S), zirehli avtomobillər və təxminən yüzə yaxın döyüş və nəqliyyat vertolyotu.

**Portal qeyd edir ki, Rusiyanın Azərbaycana hücum silahları satmasına ilk növbədə Qarabağ münaqişəsi kontekstində baxmaq lazımdır. Çünki bu silahlanma irimiqyaslı regional müharibəyə səbəb ola bilər. Portal Azərbaycanın hərbi büdcəsinin Ermənistanın hərbi büdcəsindən 13 dəfə artıq olduğunu qeyd edir. Həmçinin qeyd edilir ki, Ermənistanın bərbad gündə olan iqtisadiyyatı ordunun döyüş qabiliyyəti səviyyəsini aşağı salır:** ““GlobalFirePower” reytinqində Azərbaycan ordusu dünyada 64-cü, Ermənistan ordusu isə 74-cü yerdədir. Ermənistan bütün hərbi göstəricilər üzrə Azərbaycandan xeyli geri qalır. Azərbaycanın ordusunu gücləndirməsi şübhəsiz ki, Qarabağda müharibəyə hazırlıqdır. Azərbaycan ən azından Qarabağı geri qaytarmaq istəyir. Ermənistan Azərbaycan silahlı qüvvələrinin təzyiqi qarşısında dayanmayacaq".

## Qabil Hüseynli: “Azərbaycanı müharibəyə təhrik etmək istəyirlər”




Rusiya və ABŞ mediasında son günlər Qarabağ müharibəsinin başlanacağı barədə bu tipli yazıların arxasında dayanan məqamlar barədə **politoloq Qabil Hüseynli** bildirdi ki, müharibə təhlükəsinin olduğu hay-küyünü yaradanlar bir qədər şişirtməyə yol verirlər. Bu gün nə Azərbaycan, nə də Ermənistan müharibə istəyində görünmür və müharibə arzulamır. Amma böyük güclərin bəziləri, məsələn, Rusiya müharibənin başlamasını arzulayır. Çünki müharibənin başlaması regiona Rusiyanın daxil olması və burada hegemonluğunu daha da artırması üçün əlverişli şərait yaradır: “Ona görə də Rusiya mediasında müharibə başlayacağı, Azərbaycanın müharibədə Ermənistana sarsıdıcı zərbələr vuracağı, Qarabağın qısa zamanda geri alınacağı barədə fikirlər yazmaqla ölkəmizi sanki müharibəyə təhrik etmək istəyirlər. Bunlar çox hiyləgər və altında öz strateji maraqlarını güdən məqamların gizləndiyi təhrikedici yazılardır. Məncə, belə yazılar bir mənbədən istiqamətləndirilir. Ona görə də əksər mətbu orqanlarda eyni nöqtəyə vurulur”.

**Politoloq vurğuladı ki, Amerika mediasında gedən yazılar isə Rusiyanın təhrikedici mövqeyini əsas tutaraq yazılan yazılara bənzəyir:** “ABŞ bölgədə müharibə istəmir. Ona görə ki, bu bölgədə Amerika şirkətləri böyük məbləğdə, 50 milyard dolları keçən sərmayə yatırıblar. Müharibə olsa bu sərmayələr təhlükə altına düşə bilər. Rusiya da məhz ABŞ, Britaniyanın bu bölgədə möhkəmlənməsinin qarşısını almaq və Qərbin bu bölgəyə iqtisadi sərmayə yatırmaması üçün məhz belə təhrikedici məqalələrlə çıxış edir”.

**Q.Hüseynli, bununla belə, onu da söylədi ki, Rusiya mediasının Azərbaycanın ordusunun Ermənistan ordusundan güclü olmasını yazması həqiqətdir:** “Bəli, Azərbaycan ordusu güclüdür. Rusiya ordusunun müdaxiləsi olmasa, Azərbaycan çox qısa müddətdə öz ərazi bütövlüyünü təmin eləyə bilər. Bu, bir faktdır. Hələ bu fakt uzun müddət öz təsir gücünü qoruyub saxlayacaq. Amma məsələ burasındadır ki, son vaxtlar Rusiya Ermənistanı güclü surətdə hərbiləşdirməyə başlayıb. Ermənistandakı hərbi kontingentinin şəxsi heyətini iki dəfədən çox artırıb. Baş verənlər onu deməyə əsas verir ki, Rusiya Ermənistanı müharibəyə hazırlayır. Birinci Qarabağ müharibəsi zamanı da Rusiyanın bu rolu oynadığının şahidi olduq. Ruslar bilavasitə ermənilərlə çiyin-çiyinə, hətta ermənilərin önündə torpaqlarımızın işğal edilməsində iştirak edirdilər. İndi isə yenə də onlar suyu bulandırıb bulanıq suda balıq tutmaq istəyirlər. Zənnimcə, hələ Azərbaycanın hərbi varianta əl atması üçün lazımi şərait yaranmayıb”.

❑ Etibar SEYİDAĞA

# Antiböhran koalisiyasının debat təklifinə Müsavat, MŞ və YAP-dan cavab

**Bir qrup siyasi partiyanın və təşkilatın təmsil olunduğu antiböhran koalisiyası işçi qrupunun iclasında qərara alınıb ki, böhranla bağlı mövzuda YAP, siyasi müxalifət problemləri mövzusunda isə Milli Şura və Müsavat Partiyası xalq və KİV qarşısında açıq debatlara çağırılsın. Bu məsələnin icrası ADP sədri Sərdar Cəlaloğluna həvalə edilib.**

Bəs Müsavat, Milli Şura və YAP-ın bu təklifə münasibəti necə olacaq?

**Müsavat Partiyasının başqanı Arif Hacılı** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, antiböhran koalisiyasından hələ Müsavata müraciət olunmayıb. Yəqin ki, rəsmi müraciət olunarsa müzakirə ediləcək və cavab veriləcək.

**Müxalifətdaxili məsələlərin müzakirəsinə ehtiyac olub-olmadığı barədə sualımıza cavabında A.Hacılı dedi ki, real müxalifət qüvvələri arasında müzakirələr fasiləsiz olaraq davam edir:** “Biz münasibətlərin daha yaxşı olmasında maraqlıyıq. Əlaqələrin daha intensiv olmasının tərəfdarıyıq. Ancaq siyasət mümkün olanı həyata keçirmək sənətidir. Bunu nəzərə alaraq biz Müsavat Partiyası olaraq öz tərəfimizdən siyasi mübarizənin müxalifətin daxilindən çıxarılaraq birlikdə iqtidara qarşı yönəlməsi konsepsiyası əsasında fəaliyyətimizi davam etdiririk”.



**Arif Hacılı:** “Biz münasibətlərin daha yaxşı olmasında maraqlıyıq”



**Mehriban Vəzir:** “Düşünmürəm ki, MŞ antiböhran koalisiyası ilə debata, müzakirələrə getsin”



**Siyavuş Novruzov:** “Təkliflər yazılı təqdim olunarsa, müzakirələr aparıla bilər”

**“Antiböhran koalisiyası Müsavatla və Milli Şura ilə danışıqlar aparmağı ADP sədri Sərdar Cəlaloğluna həvalə edib. Sizin Sərdar Cəlaloğlu ilə münasibətləriniz nə yerdədir? Müraciət etsə qəbul edəcəksinizmi” sualına Müsavat başqanı belə cavab verdi:** “Biz Sərdar Cəlaloğlu ilə eyni həbsxanada, müəyyən dövrdə hətta eyni kamerada olmuşuq. 1990-cı ildən münasibətlərimiz mövcuddur. Əgər siyasi mövqelərdə hansısa fərqlər ortalığa çıxırsa, bunun şəxsi münasibətlərə aidiyyəti yoxdur. Konkret sizin qeyd etdiyinin məsələ ilə bağlı isə demək istəyirəm ki, əgər bizə müraciət olunacaqsa, Müsavat Partiyasında bu məsələ müzakirə olunacaq”.

**Milli Şuranın Koordinasiya Şurasının üzvü Mehriban Vəzir isə bildirdi ki, xeyli vaxtdır Milli Şura ilə əlaqəsi yoxdur. Bu baxımdan Milli Şuranın daxilində sözügedən məsələyə necə yanaşıldığını dəqiq bilmir:** “Amma ümumi şəkildə düşünmürəm ki, onlar antiböhran koalisiyası ilə debata, müzakirələrə getsinlər”.

**Milli Şuranın üzvü olan AXCP-nin Gənclər Komitəsinin sədri, Rəyasət Heyətinin üzvü İlham Hüseyn isə APA-ya açıqlamasında antiböhran koalisiyasında təmsil olunan partiya sədrlərini tənqid edib, onların təklif etdiyi görüşdə iştirak etməyəcəklərini qeyd edib:** “Bütün bunlar imitasiyadır. Dəvət etsələr də, biz o kampaniyada iştirak etmərik. Fəaliyyəti böhranlı olan adamların antiböhran koalisiyası yaratması gülüncdür. Bu adamlar ictimai rəydə artıq yoxdurlar və bizim bu adamlarla heç bir birliyimiz ola bilməz. Biz öz təkliflərimizi vermişik, prinsipial olaraq yolumuza davam edirik. Siyasi buqələmunlarla hər hansı əməkdaşlıq etmək fikrimiz yoxdur”.

**YAP-dan da antiböhran koalisiyasının birgə müzakirə təklifinə cavab verilib. YAP icra katibinin müavini Siyavuş Novruzov report.az-a deyib ki, Azərbaycanda iqtidar və müxalifət dialoqu üçün mühit var. Bir neçə dəfə dialoq olub, həmin görüşlərdə qeydiyyatdan keçən bütün siyasi partiyalar iştirak edir. Ölkədə baş verən ictimai-siyasi və digər məsələlərlə bağlı hansısa partiyanın təklifi varsa, həmin təklifi yazılı formada təqdim etməlidirlər:** “Yeni Azərbaycan Partiyası heç bir müzakirə və diskussiyadan çəkinmir. Ölkədə fəaliyyət göstərən partiyaların təklifləri YAP-ın Partiyalararası Dialoq Komissiyasına təqdim olunduqdan sonra sıralanır, ilk növbədə həlli vacib olan məsələlər müzakirəyə çıxarılır. İstənilən müzakirəyə qatılmağa hazırıq. Ona görə partiyalar əvvəlcə təkliflərini yazılı şəkildə verməli, sonra müzakirə başlamalıdır”.

**S.Novruzov qeyd edib ki, müxalifət partiyaları təkliflərini şifahi şəkildə səsləndirirlər:** “Keçirdikləri toplantılarda çıxışlar edirlər. Həmin çıxışların həm iqtisadi, həm hüquqi, həm də siyasi əsası olmalıdır. Təkliflər yazılı təqdim olunarsa, müzakirələr aparıla bilər”.

Qeyd edək ki, antiböhran koalisiyasına ADP, Böyük Azərbaycan Partiyası (BAP), Klassik Xalq Cəbhəsi Partiyası (KXCP), Azadlıq Partiyası, Gələcək Azərbaycan Partiyası (GAP), Milli Konqres Partiyası (MKP), Azərbaycan Liberal Demokrat Partiyası (ALDP), Azərbaycan Xalq Partiyası (AXP), Aydınlar Partiyası, Ümid Partiyası, Dünyəvi Bozqurd Partiyası (DBP), Vətəndaş və İnkişaf Partiyası (VİP) və “AG blok” hərəkatı daxildir.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016

# Yeni dövrün icra başçıları necə olmalıdır?

**Martın 3-də ölkə başçısının sərəncamı ilə Laçın və Cəbrayıl rayon icra hakimiyyətlərinin başçıları tutduqları vəzifədən azad ediliblər. Bunun ardından Prezident Administrasiyası rəhbərinin müavini Zeynal Nağdəliyev mətbuata açıqlama verərək bildirib ki, prezident yerli icra hakimiyyəti orqanlarının rəhbərləri qarşısında mühüm tələblər qoyub və qeyd edib ki, onlar insanlara xidmət göstərməli, əhalinin problemlərini həll etməli, qayğıları ilə yaşamalıdırlar, dövlət məmurları və onların ailə üzvləri özlərini təvazökar aparmalı, xalqla birlikdə olmalıdırlar və məhz bu amillərə görə onların fəaliyyətlərinə qiymət veriləcəkdir.**



**Arzu Nağıyev:** "Daha modern insanlar, xaricdə oxumuş tələbələr icra başçısı ola bilər"



**Mehman Əliyev:** "İdarəetmə sistemini saxlayıb, icra başçılarını dəyişməklə heç nə həll olunmayacaq"



**İqbal Ağazadə:** "Biz hakimiyyətdə olsaydıq, icra başçısı institutunun səlahiyyətlərini minimuma endirərdik"

Bundan başqa, Prezident İlham Əliyev "Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramının ikinci ilinin yekunlarına həsr olunmuş toplantıda vurğulamışdı ki, ölkədə heç kəs toxunulmaz deyil, əgər bəzi yüksək vəzifəli şəxslər qanunu pozurlarsa, öz vəzifə borclarını yerinə yetirə bilmirlərsə, onlar mütləq cəzalandırılacaqlar. Sadalanan bu məlumatlardan istifadə edərək deyə bilərik ki, hökumət icra başçıları ilə bağlı fəaliyyətində yeni siyasi yanaşma ortaya qoymaqdadır. İqtidarın idarəetmə strukturlarında islahatlara məhz icra başçısı postundan başlaması da təsadüfi deyil. Çünki siyasi iqtidarlar üçün icra hakimiyyəti strukturu ön cəbhə sayılır və hökumətlə xalq arasında əsas təmas nöqtəsidir. Ona görə də orada olan kadrların keyfiyyəti, müasir dünyagörüşü və texnologiyadan istifadə bacarıqlarının böyük əhəmiyyəti var. Prezident İlham Əliyev də bildirib ki, hökumət strukturları asanlaşacaq. Ekspertlər də bunun vacibliyini qeyd edirlər.

Qeyd edək ki, hazırda xaricdə təhsil almış, yüksək ixtisaslı gənclər var ki, onların da potensialından istifadə etmək olar. Hökumətdə belə bir dəyişikliyin olması , gənclərin vəzifəyə gəlməsi şansı varmı?

**Bu mövzuda "Yeni Müsavat"a açıqlama verən politoloq Arzu Nağıyev bildirdi ki, daha müasir təfəkkürlü və daha bacarıqlı kadrların icra başçısı postuna gətirilməsinə ehtiyac var:** "Ölkə başçısı da çıxışlarında dəfələrlə qeyd edib ki, artıq bu strukturlarda yaradıcı insanların, rayona vəsait gətirməyi bacaran, müasir texnologiyadan, texnikadan başı çıxan şəxslərin gətirilməsi daha doğrudur. Yəni hansısa qruplaşmalara xidmət edən, öz şəxsi mənafeyini güdən şəxslərin gətirilməsi məqsədəuyğun deyil. Bu son zamanlar ölkə başçısının, regionların sosial-iqtisadi inkişafı ilə bağlı çıxışlarında da təkrarlanırdı. Eyni zamanda Nazirlər Kabinetinin iclasında da bu məsələni dəfələrlə qeyd etmişdilər. Son vaxtlar icra başçıları sanki özlərini birinci şəxs kimi aparmaqla xalqla hökumət arasında narazılıq yaratmağa başlamışdılar. Məhz o cür kadrlardan birdəfəlik imtina etmək lazımdır. Bu kadr siyasətini dəyişmək bu gün prioritet istiqamətlərdən biridir. Mən düşünürəm ki, daha modern insanlar, xaricdə oxumuş tələbələr də icra başçısı ola bilər. Həmçinin rayonda hər hansı dövlət strukturunun inkişafı üçün müvafiq bilik və bacarığı olan şəxslər də ola bilər. Bu sahədə müvafiq addımlar atılmalıdır. Yəqin ki, buna görə də aparıcı rəhbərlərin vəzifələrindən çıxarılması bu gün artıq pik nöqtəyə çatıb".

**İcra hakimiyyətinin bələdiyyələrlə əvəzlənməsinə gəlincə, politoloq bildirdi ki, bu, zaman və ciddi islahat tələb edən bir işdir:** "Bəzi ekspertlər icra hakimiyyətlərinin bələdiyyə hakimiyyəti ilə əvəzlənməsini irəli sürürlər. Lakin bunun üçün bir neçə mərhələli işlər görülməlidir. Son vaxtlar bu istiqamətdə bir sıra qanunlar hazırlanır və həmin qanunların qəbul olunması istiqamətində iş gedir. Bələdiyyə hakimiyyətinin formalaşması üçün bələdiyyə torpaqları ayrılmalıdır, dövlət torpaqları ayrılmalıdır, bundan sonra da müvafiq addımlar atılmalıdır. Bələdiyyə seçkilərinin keçirilməsi forması, bələdiyyə üzvlərinin sayı istiqamətində müvafiq addımlar atılmalıdır. Bunlar artıq Milli Məclisdə müzakirə olunur. Lakin bu qısa müddətdə başa gələn iş deyil. Xarici dövlətlərdə də bələdiyyə başçıları var, icra nümayəndələri də var. Türkiyə və Avropa ölkələrində də hər iki təcrübədən istifadə olunur. Hakimiyyətin necə olmasından asılı olmayaraq, onlar insanların rifahına xidmət etməli və regionların vəziyyətinin yaxşılaşdırılması istiqamətində faydalı olmalıdır".

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev "Yeni Müsavat"a açıqlamasında problemin kadrlarla deyil, idarəetmə strukturu ilə bağlı olduğunu vurğuladı:** "2000-ci ildən Avropa Şurasına qoşulanda artıq biz islahatlara başlamalı idik. Çünki o zaman bələdiyyə seçkilərinin keçirilməsi tələblərdən biri idi. Bizdə isə hələ də sovet quruluşunun idarəetmə sistemi qalıb. Bu, anaxranizmdir. Əgər ölkədə bələdiyyə sistemi olsaydı, azad və ədalətli seçkilər nəticəsində yerli sakinlər özlərinə həmin bölgəni idarə etmək üçün sədr və idarə heyəti üzvləri seçsəydilər, onların seçicilər qarşısında məsuliyyəti olsaydı, onda vəziyyət tamamilə fərqli olardı. O zaman başçı seçicilər qarşısında hesabat verəcəkdi, yenidən seçki keçirildiyi zaman rəqabət olacaqdı. Kim xalqa daha yaxşı xidmət etsəydi, o seçiləcəkdi. Bu baxımdan hazırkı sistem ləğv olunmalıdır. Sistemi saxlayıb, icra başçılarını dəyişməklə heç nə həll olunmayacaq. Bütün Avropa ölkələrində bələdiyyə sistemi fəaliyyət göstərir. Düzdür, orada da prezidentin nümayəndələri var, lakin hər rayon üzrə yox, sadəcə, vilayət üzrə. O heç bir rayonu idarə etmir, sadəcə, prezidentin qəbul etdiyi qərarlara necə əməl olunmasına nəzarət edir. Bizdə başçılar seçki yolu ilə seçilmir, təyin edilir, ona görə də xalq qarşısında məsuliyyət daşımır, heç kimə cavabdehliyi yoxdur. Bu mənada bölgələrdə vəziyyət pisdir, insanlar narahatdır, narazıdır. Ona görə də harada narazılıq çoxdur, həmin icra başçılarını çıxarırlar".

**Ümid sədri İqbal Ağazadə də icra başçısı institutundan imtina etməyin və onu seçkili orqanla əvəz etməyin vacibliyini qeyd etdi:** "Biz hakimiyyətdə olsaydıq, ümumiyyətlə icra başçısı institutunun səlahiyyətlərini minimuma endirərdik, bələdiyyələrin statusunu qaldırarıq. Ölkəni seçkili orqanlar idarə edər, icra başçıları isə daha çox prezidentlərin yerlərdəki nümayəndəsi kimi fəaliyyət göstərər. Ona görə də mən hesab etmirəm ki, bu gün icra başçısı kimlər təyin olunmalıdır məsələsində hansısa bir mövqe ifadə edilsə, hansısa prosesləri dəyişəcək. İdarəetmə sisteminin özünü dəyişmək lazımdır. Dəyişməyəndən sonra hansı kadr olmasından asılı olmayaraq, o kadr nəhayətdə sistemin siyasətini həyata keçirəcək. İcra hakimiyyətlərinin vəzifədən çıxarılmasına gəlincə, ikisinin vəzifədən azad olunması heç də yeni yanaşma tərzi və komandanın dəyişməsi deyil. Bu, sıradan bir hadisədir. Dəfələrlə olub ki, icra başçıları vəzifədən çıxarılıb və ya yerləri dəyişdirilib, ancaq ümumilikdə heç nə dəyişməyib".

❑ **Nərgiz LİFTİYEVA**

# Quliyevin qulluqdan alınması



**Xalid KAZIMLI**

**Belə anlaşılır ki, Cəbrayıl rayonunun İH başçısı Mahmud Quliyevin fərmanı ilin əvvəlində, yəni iki ay qabaq, o, rayon sakini olan qohumunu "ərklə" təhqir edib, "köpəkoğlu" adlandıranda kəsilmişdi.**

Xatırlayırsınızsa, o zaman ölkə mediasında bu məsələ gen-bol müzakirə olundu, hadisəni əks etdirən videolar yayıldı, İH başçısı əvvəlcə belə bir olay baş verdiyini təkzib etdi, sonra naəlac qalıb təsdiqlədi və "öz qohumumdur, ərk eləmişəm" deyə vəziyyətdən çıxmağa çalışdı.

Elə o zaman da görünürdü ki, bu hadisə yüksək dairələrdə mənfi reaksiya doğurub və obrazlı desək, söyüşcül İH başçısının qələmi qırılmaq üçün masa üstünə gətirilib.

Bu baxımdan M.Quliyevin işdən götürülməsi barədə sərəncamın indi elan edilməsi texniki səciyyəli deyil, köhnə sərəncamın yenilənməsidir. Sadəcə, əmr verənlər bir qədər gözləyiblər ki, ortalıq sakitləşsin, toz-torpaq yatışsın.

Quliyevi qulluqdan yanvarda götürsəydilər, elə çıxardı ki, ali saray xalqın tələbi qarşısında öz kadrlarını ayağa verir, xərcləyir.

Bununla yanaşı, bu cür adam biabır eləyən kadrı iş başında çox saxlamaq da başqa bir rüsvayçılıq idi. Adamın əlində "qumbara partlayıb", iqtidar komandasının adını bədnam eləyib və hələ də işinin başındadır - buna təhəmmül etmək olardımı?

Ona görə də Mahmud Quliyevin sevimli kreslosundan ayrılması nə dərhal baş vermədi, nə də çox uzun çəkdi. İlk fürsətdə adamı qapı dalında qoydular.

İnkişaf etmiş demokratik ölkələrdə onu elə həmin gün vəzifəsindən istefa verməyə məcbur edərdilər. Bizdə isə fərqlidir. Gözləməyi üstün tuturlar. Qoy xalq da ümidlənməsin, elə hesab etməsin ki, belə məsələlər onun ayaqlanması ilə həll olur.

İndi Quliyev deyir ki, guya özü də vəzifədən getmək istəyirmiş. Tipik bir riyakarlıqdır, guya ki, özünü sındırmır.

Bu gün çağırıb desinlər ki, Mahmud müəllim, gəl səni başqa bir rayona İH başçısı göndərək, sevə-sevə, atıla-atıla gedər, kimə lazımdırsa, xərclik də verər, üstəlik, bu münasibətlə bir toyun adamını yığıb ziyafət də təşkil edər.

Bu ölkədə könüllü şəkildə istefa verən nazir, komitə sədri, İH başçısı nə vaxt olub ki? Yaşları 81 olur, hələ də vəzifədən getməyi düşünmürlər. Hətta direşirlər, ölüm-qalım məsələsinə çevirirlər.

Mahmud Quliyev də o cür "uzunömürlü məmurlar" kateqoriyasına daxildir. Çox keçməz, (bir-iki aydan sonra) yenidən yüksək vəzifə almaq üçün lazımi adamların qapısına minnətə gedər.

Bununla belə, artıq o, taxtdan düşmüş birisidir. Görək, yenə də camaatın içində hansısa rayon sakinini, lap hansısa qohumunu "ərklə" təhqir edə bilərmi? Yox, indi edə bilməz. Çünki yanında "bunu tutun basın", "ona cinayət işi açın" deyə biləcəyi rəis, prokuror yoxdur.

Hətta ola bilər ki, hazırda kimlərsə onun özünün torbasını tikməyə çalışır, dolaşdırmaq, içəri basıb illərlə toplayıb artırdığı varidata əl qoymaq istəyir.

Əlbəttə, bu gün vəzifəsinə layiq olmayan, hansısa şübhəli xidmət və "üstünlük"lərinə görə yüksək dövlət vəzifəsinə təyin olunan quliyevkimilər çoxdur. Vəzifədən götürülməli İH başçılarının siyahısını tutsaq, siyahıdan kənarda qalanlar iki əlin on barmağı qədər olar, ya olmaz.

Ancaq onlara dəyib-dolaşan yoxdur və olmayacaq da - ta sarayda öz sədaqətlərinə şübhə oyadana qədər, hansısa bir qalmaqalda iştirakçı olub özlərini yandıranadək.

Hələ bu da onların bir çoxu üçün qorxulu deyil. Çünki daha yüksək mənsəbli şəxslər tərəfindən himayə olunan İH başçıları da az deyil. Sarayın favoritləri kateqoriyasına daxil olan və toxunulmaz hesab edilənlər də var.

"Toxunulmazlar" xalqın başında turp əksələr də, onlara bir söz deyən olmur. Şəxsi sədaqətlərini dəfələrlə sübut etmiş belə adamlar İH başçılığından da ötə səlahiyyətlərə malikdirlər və Mahmud Quliyevdən fərqli olaraq, kimisə söyəndə qalmaqalla üzləşmirlər.

Bizim ölkəmizdə İH başçılığı institutu orta əsr xanədanlıqlarının vali institutu kimi bir şeydir. Təyinat eyni cür aparılır, eyni sədaqət umulur, onların iştəklərinə də eyni cür göz yumulur.

Rayon rəhbərləri Avropada olduğu kimi azad və qanuni seçkilər yolu ilə seçilsələr, bəlkə situasiyanı xilas etmək olar.



# Satmağa adamdan başqa nəsə qalmayanda

Zamin HACI
zaminhaci@gmail.com

**Devalvasiyanın şıdırğı çağında yapistlərdən kimsə deməmişdi ki, Mərkəzi Bank dövlət orqanı deyil. Yəni manatın çəzməsinin məsuliyyətini bizim üstümüzə atmayın.**

Bunlara nə var, bir də gördün neft qurtarandan sonra Azərbaycanda tarixən heç vaxt neft çıxmadığını da bəyan etdilər. Kim kimədir? Analoqu olmayan ölkədir. Normal aləmdə dağı Comolunqma *(tibet dilində "Küləklərin tanrıçası" anlamı verir),* nə bilim, Kilimancaro *(suaxili dilində "Parlaq dağ" deməkmiş)* adlandırırlar, bizdə isə Bazardüzü. Dağ zirvəsində bazar açan millətdən nə gözləmək olar? Başqa ölkələrdə vulkandan od-alov püskürür, bizimkindən palçıq. Altı rayonu düşmənə verən adama milli qəhrəman adı qoymuşuq. Hətta böyrümüzdə dəniz var, o da prinsipcə dəniz deyil, göldür.

Nə başınızı ağrıdım, mənim sözüm odur ki, əgər Mərkəzi Bank dövlət qurumu sayılmırsa, biz onun sədri Elman müəllimdən acizanə xahiş edərdik dilini bir yerə qoysun, sakit dursun. Çünki bu adam hər dəfə, manıslar demişkən, "efirlərə" çıxıb manatın devalvasiyasının gözlənilmədiyini deyən kimi devalvasiya olur. Son dəfə də bu qanunauyğunluq pozulmadı. Elman müəllim 26 fevralda danışdı, manat isə martın 3-də bir az da ölərək dollara nisbətdə 1 manat 60 qəpiyə endi.

Beləcə, baş bankirin manat haqda nikbin açıqlamasını millət tərsinə yozmaq adətinə öyrəşmişdir. Necə ki, Amerikada, Kanadada-zadda porsuğun yuvadan çıxanda kölgəsinin hara düşməsinə əsasən yazın tez, ya gec gələcəyi müəyyən edilir, bizdə də maliyyə bazarlarında sabitlik Elman Rüstəmovun danışığından asılıdır.

Rəhmətliyin oğlu, səndən xahiş edən var danışasan? Lazım deyil. Artur müəllim danışmır, nə olur? Sən də sus. Susmağı baş nazirdən öyrən. Hətta bizə Elman Rüstəmovu susdurmaq üçün dövlət proqramı da lazımdır.

Ümumiyyətlə, bizim ölkədə dövlətlə qeyri-dövlətin, susmaqla danışmağın, iş verməklə işverənliyin fərqləri çox yayğındır, amorfdur. Sərhədi tapmaq olmur. O baxımdan, polislə əməkdaşlıq edəcək işçilərin yaradılması haqda yeni prezident sərəncamı cəmiyyətdə böyük maraqla qarşılanıbdır.

Prinsipcə, hər bir insan cinayət görəndə bunu polisə xəbər verməyə borcludur. Qanunda buna görə məsuliyyət də nəzərdə tutulur. İndiki sərəncamın isə yeni cəhətləri var: polislə əməkdaşlıq edəcək şəxslərə geyim, maaşa bənzər ödəmələr veriləcək, bu "işverənlər" gələcəkdə polisə daimi işə götürüləndə üstün hüquq qazanacaq və sairə.

İranda Xomeyni belə idarəni hələ 1979-cu ildə yaradıb, adı da "Bəsic"dir. Bəsiclərin əsas vəzifəsi molla rejiminin xoşuna gəlməyən şəxsləri polisdən qabaq tutub cəzalandırmaqdır. Bunlardan vaxtaşırı olaraq etiraz aksiyalarının yatırılmasında, jurnalistlərin, müxalifətçilərin oğurlanıb məhv edilməsində də yararlanıblar. Bənzər idarəciklər SSRİ-də xalq drujinaları adlanırdı. İstənilən totalitar rejimin kütlələrə total nəzarəti təmin eləmək problemi olur, çünki hamıya polis çatdıra bilməzsən. Bəs nə etməli? Heç nə: hamını polisə çevirmək! Hər ailədə azı bir "işverən", "pavlikmorozov" təşkil edəcək Böyük Qardaşın nəzərlərindən heç kim qaça bilməz. İndi də yapistlərin pulu azalıb, "ictimai nəzarəti" əvvəlki kimi qayıra bilmirlər, bunu qışda bəzi rayonlarda etiraz aksiyaları olarkən əyani gördülər. Polislə əməkdaşlıq adıyla vətəndaşları şirnikləndirib bir-birinin üzünə qoymaqla korrupsiya prosesini davam etdirməyi düşünürlər.

Məncə, iqtidar üçün uğurlu projedir, uca millətimizi hamıdan yaxşı tanıdıqlarını bir daha isbat elədilər. Çünki bu millət tarix boyu qardaşın qardaşı, şairin şairi, siyasətçinin siyasətçini, əkinçinin maldarı, arvadın əri, nənənin babanı satdığı millət olmuşdur. Ona görə SSRİ dağılanda "Gəlin KGB arxivlərini açaq, kimin hansı alçaqlıq elədiyi bilinsin" deyənlərin ağzından vurdular. Hətta bir gülməşəkər müxalif siyasətçi belə də demişdi: "O arxivlərin açılması vətəndaş savaşına səbəb olar". Çünki özünün də dosyesi orda var idi.

İndi də həmin baza, həmin infrastruktur yerindədir, işləkdir. Necə deyərlər, ağa durur, Ağacan durur. İqtisadi çətinlikdir, satmağa mal azalıb, adam satıb yaşayaq.

# Azərbaycan uğrunda geosiyasi rəqabət şiddətlənir



# Putinin emissarları Bakıya niyə gəlir - pərdəarxası

## Roqozinin ardınca XİN başçısının müavini Qriqori Karasin də ölkəmizə gəlir; Bakının Türkiyə və Qərblə yaxınlaşma xəttini gücləndirməsi Moskvada təlaş yaradıb; Kreml Azərbaycandan nə istəyir?..

**Ötən həftə sonu Azərbaycan və Rusiya prezidentləri - İlham Əliyev və Vladimir Putinin intensivləşən telefon danışıqlarının ardınca Rusiyadan ölkəmizə emissar axını başlayıb. Rusiya baş nazirinin müavini, ölkənin hərb-sənaye kompleksinə cavabdeh olan və prezident Vladimir Putinin ən yaxın silahdaşlarından sayılan Dmitri Roqozin Bakını tərk etməyə macal tapmamış dünən - martın 4-də xarici işlər nazirinin müavini Qriqori Karasin ölkəmizə təşrif buyurmalı idi.**

İlkin məlumata görə, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşdə "geniş spektrli ikitərəfli və regional məsələlər" müzakirə olunmalı idi. "Bizim gündəliyimiz genişdir, ikitərəfli təmaslar, çoxlu məsələ var. Müxtəlif səviyyələrdə ikitərəfli görüşlərin perspektivlərini, regional problemləri, Cənubi Qafqazın problemlərini müzakirə edəcəyik. Danışmağa çox şey var", - deyə səfər öncəsi Karasin bildirmişdi.

***

Söhbətin konkret hansı məsələlərdən gedəcəyi əslində aydındır. Mövzu həminkidir: Moskvanı öncəliklə Suriya məsələsi və Ankara-Kreml münasibətlərində, regionda Bakının tutduğu mövqe maraqlandırır. Bir sıra rusiyalı ekspertlərə görə, Putin telefon danışığı zamanı özünün azərbaycanlı həmkarı İlham Əliyevə bu yöndə hətta incə şəkildə çatdırışlar və təzyiqlər də edib ki, rəsmi Bakı Türkiyənin yanında qərar tutmasın, Suriya məsələsində Moskvanın yanında olsun.

Roqozinin təfərrüatları bir elə açıqlanmayan səfəri də Azərbaycan rəhbərliyinə konkret mesajların çatdırılması kontekstində şərh oluna bilər. Maraqlıdır ki, Rusiya hərbi-sənaye kompleksində ən önəmli fiqur olan Roqozinin gəlişindən bir öncə Azərbaycanla Türkiyə Hərbi-Hava Qüvvələrinin tezliklə (martın 7-də) 3 həftəlik birgə təlimlərinin başlanacağı haqda məlumat yayılmışdı.

Bundan bir neçə gün qabaq isə Azərbaycan paytaxtında Cənub Qaz Dəhlizinin II Məşvərət Şurasının toplantısı olmuş, Avropanın Rusiyadan qaz asılılığını minimuma endirəcək bu layihənin reallaşmasını sürətləndirmək, o sırada dəhlizin üçüncü mühüm seqmenti olan TAP-ın inşasına başlamaq qərara alınmışdı.

Qərbin enerji boslarının qatıldığı və Rusiya əleyhinə olan Bakı qaz sammitində Azərbaycan prezidenti İ. Əliyev bu layihənin xüsusi önəmini vurğulayaraq, onu iştirakçı ölkələrin milli təhlükəsizliyinin mühüm tərkib hissəsi adlandırmışdı. Eyni zamanda toplantı çərçivəsində ABŞ tərəfindən - onun nümayəndəsi, Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokştaynın dilindən Rusiya əleyhinə açıq tənqidi fikirlər səslənmişdi - bu barədə informasiya iki gün sonra açıqlansa da...

***

Azərbaycanın Ermənistana 200 milyon *(əslində 1 milyard dollarlıq)* silah-sursat verməyə hazırlaşması ilə bağlı Rusiyaya verdiyi notanı da nəzərə alsaq, bu və digər amillərin Moskvada Azərbaycan sarıdan bir narahatlıq yaratdığını söyləmək olar. Mümkündür ki, Putin ən əvvəl bu və başqa nüanslara aydınlıq gətirmək, "vəziyyəti yerində öyrənmək üçün öz hərbi və siyasi emissarlarını Azərbaycana - həm də özünün mühüm silah alıcısı olan bir ölkəyə yollamağa ehtiyac duyub. Axı hər şeyi telefonda danışmaq da olmur - üstəlik, telefon danışığı dinlənilə bilirsə.

"Fakt budur ki, son vaxtlar Azərbaycanın qərbyönlü siyasəti xeyli fəallaşıb. ABŞ və Avropa Birliyi (AB) ilə münasibətlər, xüsusən də energetiki və iri regional (ortaq) layihələr üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir". Bu sözləri sabiq dövlət müşaviri, **politoloq Qabil Hüseynli** hazırkı geosiyasi şəraitdə Azərbaycanın yürütdüyü xarici siyasətlə bağlı yerli mətbuata danışarkən deyib.

**Politoloq qeyd edib ki, Avropa Birliyi (AB) bir sıra enerji layihələrinin həyata keçirilməsində Azərbaycanı özünə ən etibarlı tərəfdaş sayır:** "Azərbaycanın qərbyönlü siyasəti xeyli fəallaşıb. ABŞ və Avropa Birliyi ilə münasibətlər yüksələn xətlə gedir. Azərbaycan hazırda regionda enerji dəhlizi rolunu oynayır. Rusiya Ermənistanı silahlandırır. Məhz bunun nəticəsidir ki, Dağlıq Qarabağda sülh yaratma prosesində ciddi əngəllər meydana çıxır. Bütün bunlara rəğmən, Azərbaycanın Rusiya ilə münasibətləri qaydasındadır. Zənnimcə, tam səmimi olmasa da, Rusiya tərəfi bunu anlamış kimi görünür".

***

O da artıq bəllidir ki, tezliklə Azərbaycan, İran və Rusiya xarici işlər nazirləri Tehranda görüşəcəklər. Rusiya XİN başçısı müavininin Bakı səfəri yəqin ki, bu mövzuya da həsr olunacaq. İlham Əliyevin İran səfərinin ardınca 3 XİN rəhbərinin planlaşdırılan görüşü haqda məlumatın yayılması bəzi siyasi müşahidəçilərdə belə bir qənaət formalaşdırıb ki, artıq Moskva-Bakı-Tehran geosiyasi üçbucağı yaranmağa başlayır.

Bəs Bakının son vaxtlar Qərblə iqtisadi-siyasi sahələrdə intensivləşən əlaqələri fonunda belə bir geosiyasi "ox"un yaradılması mümkündürmü?

**Qabil Hüseyni bunu istisna edir. Onun sözlərinə görə, Tehran görüş üçtərəfli əməkdaşlıqdan xəbər versə də, "Üçlər ittifaqı"nın yaradılmasını nəzərdə tutmur.** "Qoşulmayanlar Hərəkatının üzvü və balanslı siyasi xətt yeridən ölkə kimi Azərbaycanın Rusiya və İranla bir ittifaqda yer almasından söhbət gedə bilməz. Bu görüşdə Azərbaycan Dağlıq Qarabağ problemini daha qabarıq surətdə meydana qoya bilər. Ona görə də rəsmi Bakıya hazırda məhz bu cür tarazlaşdırılmış siyasət lazımdır" - qeyd edib ekspert.

***

Ancaq qəlizləşən və getdikcə daha çox Rusiyanın əleyhinə işləyən regional şərtlər fonunda belə görünür, Bakının balanslı siyasəti də Moskvanı əvvəlki tək qane eləmir. Azərbaycan uğrunda Qərb-Rusiya rəqabətinin güclәndiyi aydın şəkildə sezilməklə bərabər, ölkəmiz təzədən geosiyasi intriqaların episentrinə gəlmədədir.

Bəs Kreml Bakıdan konkret nə istəyir? Bu suala yəqin ki, yaxın günlərdə daha dolğun cavab tapmaq mümkün olacaq.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016

**Martın 4-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Spiker Oqtay Əsədovun sədrliyi ilə baş tutan iclasın gündəliyinə həmişəkindən xeyli çox, 43 məsələ daxil edilib.**



# Oqtay Əsədovdan Xarici İşlər Nazirliyinə etiraz

## “Dəfələrlə bu kimi sənədlər XİN-dən bizə gələndə irad bildiririk, amma nəticəsi yoxdur...”

### Parlamentdə kazinoların bərpası təklif olundu; deputatlar Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılmasına dəstək verdi; “Lisenziyalar və icazələr haqqında” qanun layihəsi isə müzakirələrdən çıxarıldı

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə prezident İlham Əliyevin fevralın 3-də Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında imzaladığı fərmanın əhəmiyyətindən bəhs edib. O, iclasın gündəliyinə çıxarılan məsələlərin hamısının bu fərmandan irəli gələn vəzifələr olduğunu söyləyib.

**Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması üzrə İşçi Qrupunun rəhbəri Rüfət Aslanlı çıxışında bildirib ki, palatanın yaradılmasında əsas məqsəd pul siyasəti funksiyası ilə maliyyə bazarlarının tənzimlənməsi funksiyası arasında ziddiyyətləri bir-birindən ayırmaqdır:** “Ötən dövr ərzində işçi qrup palatanın fəaliyyətinin mütərəqqi beynəlxalq prinsip və standartlara uğun təşkil olunmasını təmin etmək məqsədi ilə bu sahədə mövcud olan beynəlxalq standartları araşdırıb. Bunun nəticəsi olaraq isə dövlət başçısına həm təşkilati, həm normativ xarakterli təkliflər təqdim edilib. Bu gün müzakirə olunan qanunvericilik aktları zərfi məhz normativ və qanunvericilik xarakterli təkliflərin məcmusudur. Azərbaycanda yenilik olan maliyyə bazarları tənzimləyicisi bir müddətdir ki, həm Qərbdə, həm Şərqdə geniş tətbiq olunur”.

R.Aslanlı qeyd edib ki, bütövlükdə palata kredit təşkilatları, sığorta sektoru, qiymətli kağızlar bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını həyata keçirəcək. Palata həmçinin çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət sahəsində dövlət siyasətini, onun tətbiqini təmin edəcək. Palata sədri bildirib ki, Azərbaycan Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin bütün funksiyaları Maliyyə Bazarlarına Nəzarət Palatasına keçəcək. İşçi Qrupunun rəhbəri vurğulayıb ki, iclasın gündəliyində təqdim olunan qanunvericilik zərfi məhz palatanın sadalanan mandat çərçivəsində fəaliyyəti üçün hüquqi əsaslar yaratmağa xidmət edir. Hazırda bank, sığorta və kapital bazarları sektorlarını müxtəlif orqanlar tənzimləyir və orada nəzarət tədbirləri həyata keçirir. Bu tənzimləyici orqanlar isə Mərkəzi Bank, Maliyyə Nazirliyi və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsidir. R.Aslanlı təklif olunan sənədlərin Mərkəzi Bank və palatanın səlahiyyətlərinin bölgüsünü dəqiq müəyyən etməyə imkan yaratdığını deyib. Mərkəzi Bank pul siyasətini həyata keçirəcək, ödəniş sistemlərinin fəaliyyətini təşkil edib onu tənzimləyəcək. Eyni zamanda nağd pul təsərrüfatını təşkil edəcək. “Valyuta tənzimi haqqında” Qanunla Mərkəzi Bankın valyuta nəzarəti orqanı funksiyası olduğu kimi saxlanılır. Bank sisteminin tənzimlənməsi və nəzarəti funksiyası isə palatanın səlahiyyətinə keçir.

R.Aslanlı qeyd edib ki, hələlik palatanın nizamnaməsi təsdiq olunmayıb, bunun üçün müəyyən prosedurlar həllini tapmalıdır. Ancaq ölkə başçısının tapşırığı əsasında bir sıra işlər həyata keçirilib. Palatanın iki səviyyəli idarəetmə orqanı yaradılacaq - Direktorlar Şurası və İdarə Heyəti, palata tam əməliyyat və maliyyə müstəqilliyinə malik olacaq. Eyni zamanda palatanın direktorlar şurasının üzvləri tam müstəqil şəxslər olmalıdır.

**Sonra Milli Məclisin deputatları qanun layihəri haqqında fikirlərini səsləndiriblər.**

**Deputat Qüdrət Həsənquliyev R.Aslanlının peşəkar bank işçisi olduğunu deyib:** “Əgər doğrudan da Nəzarət Palatası Mərkəzi Bankın kölgəsinə çevrilməyəcəksə və Rüfət Aslanlı öz bacarığına uyğun şəkildə fəaliyyət göstərəcəksə, məncə, biz böyük uğurlar qazanacağıq. Hökumət nə qədər qərarlar qəbul edir-etsin, əgər xalq, iş adamları buna inanmayacaqsa, inkişaf etmək çox çətin olacaq. Yeni yaradılmış qurum həm də ictimaiyyəti inandırmağa çalışmalıdır, ictimaiyyətlə işləməlidir”. Q.Həsənquliyev icbari tibbi sığortanın tətbiqinə başlamağa da çağırdı: “Nəhayət, icbari tibbi sığorta və səhiyyə obyektlərinin özəlləşdirilməsinə qərar verilməlidir”. **Deputat ölkədə kazinoların bərpasına da çağırdı:** “İdman mərc oyunları da qumarın bir formasıdır. Gürcüstanın Batumi bölgəsi kazinoya görə xeyli turistlər cəlb etdi. Biz də Azərbaycanın turizm bölgələrində kazinoların fəaliyyətinə icazə verə, bununla Türkiyə, Gürcüstan, İrandan çoxlu sayda turist cəlb edə bilərik. Onsuz da bəziləri o pulları aparıb xaricdə uduzurlar, kazinoları bərpa edək, elə burda uduzsunlar. Bu da iqtisadiyyata töhfə verərdi”.

**Deputat Siyavuş Novruzov iqtisadi blokun inkişafı, dövlət büdcəsinə əlavə gəlirlərin gəlməsi, maliyyə nəzarətinin təmin olunması üçün təqdim olunan qanunları qəbul etməyə çağırıb. Deputat son vaxtlar evlərin yarılması, pulların aparılması ilə bağlı hadisələrin çoxaldığını deyib. O bildirib ki, müxtəlif qruplar, təşkilatlar yaradılıb və banklardan pulunu götürən adamların mənzillərinə girirlər. S.Novruzov mərc oyunlarından da bəhs edib:** “Onsuz da qeyri-rəsmi şəkildə belə hallar var, bəziləri qeyri-rəsmi pullar yığır. Amma dövlətə vergi verilmirdi. Biz qanuna dəyişiklik etməklə bu cür qanunsuz fəaliyyətin qarşısını alırıq”.

Müzakirələrdən sonra qanun layihələri səsvermə ilə qəbul edilib.

**“Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı çıxış edən millət vəkili Hüseynbala Mirələmov bildirib ki, qanun layihəsi Bakının daha da gözəlləşməsinə, eləcə də investorların ölkəmizə cəlb edilməsinə şərait yaradacaq. Lakin deputat qanunda müəyyən boşluqların olduğunu bildirib. O deyib ki, layihəyə qaz anbarlarının tikilməsi ilə bağlı məsələlər də daxil edilməlidir:** “Bundan başqa, Bakının 9 rayonunda qəzalı binalar sökülərək, yerində yeniləri tikiləcək. Bu qərar qəzalı binalarda yaşayan insanların sevincinə səbəb olub”.

**Spiker deputatın boşluqlarla bağlı fikirlərinə münasibət bildirərək söyləyib ki, sözügedən qanunun I oxunuşda müzakirəyə çıxarıldığı nəzərə alınmalıdır:** “Qanunlar üç oxunuşdan sonra qəbul olunur. Hazırda isə birinci oxunuşdur. Burada səslənən bütün təkliflər nəzərə alınacaq”.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, burada layihə ilə bağlı səslənən bütün təkliflər nəzərə alınacaq:** “Qanun layihəsi ilə əlaqədar işçi qrupu yaradılacaq. Ümumiyyətlə, layihə konseptual baxımdan vacib və düzgündür. Qanun investisiya axını baxımdan mühüm olacaq. Qanun I oxunuşda qəbul olunmalıdır”.

Qeyd edək ki, qanunda xüsusi maliyyələşmə tikinti və infrastruktur obyektlərinin və onlara oxşar obyektlər ilə əlaqədar investisiya layihələrinin “Tik, idarə et, təhvil ver” (TİT) modelinə uyğun maliyyələşmə nəzərdə tutulub.

**“Lisenziyalar və icazələr haqqında” qanun layihəsinin üçüncü oxunuşu isə təxirə salınıb. Z.Səmədzadə deyib ki, sahibkarlıq fəaliyyətinə görə lisenziyaların verilməsi məsələsi birmənalı qarşılanmır. Belə ki, lisenziyaların sayının çox olması narazılıq yaradır. Z.Səmədzadə əlavə edib ki, bu səbəbdən lisenziyaların verilməsi ilə bağlı icazələrin sayının azaldılmasına görə Prezident Administrasiyası ilə danışıqlar aparılır. Komitə rəhbəri hələlik danışıqlar başa çatmadığı üçün qanun layihəsinin müzakirəsini təxirə salmağı xahiş edib. Spiker Oqtay Əsədov da onunla razılaşıb:** “Səhv etmirəmsə, əvvəlki layihədə 199 icazə var idi, ancaq yeni siyahıda onların sayı 164-dür. Ona görə də layihəni gündəlikdən çıxaraq, lazım olar hökumətin hesabatından sonra təkrar müzakirə edərik”.

**Milli Məclis “Ümumdünya Poçt Konvensiyasına və onun yekun Protokoluna qoşulmaq haqqında” sənədi də müzakirə edib. Parlamentin sədr müavini Valeh Ələsgərov bu tip sənədlərin Azərbaycan dilinə çox bərbad tərcüməsindən, əksər hallarda əcnəbi sözlərin istifadəsindən şikayətlənib:** “Adam belə sənədləri oxuyanda bəzən utanır. Dəfələrlə Milli Məclisə belə beynəlxalq sənədlər daxil olanda mənə elə gəlir ki, bunu tərcüməçi yox, kompüter tərcümə edib. Heç nə anlamaq olmur. Biz müstəqil dövlətik və müstəqil qanunvericiliyimiz var. Niyə axı öz dilimizə belə yanaşırıq?! Məsələn, preambula sözü bizə ruslardan gəlib. Məgər biz ruslara qədər yazıb oxumağı bilməmişik? Bir vaxtlar rus dilində danışmaq modda idi, indi də, deyəsən, sənədləri əcnəbi dildə yazmaq moda düşüb. Bu, məni çox əsəbiləşdirir”.

**O.Əsədov isə bu işdə Xarici İşlər Nazirliyini günahlandırıb:** “Dəfələrlə bu kimi sənədlər Xarici İşlər Nazirliyindən bizə gələndə irad bildiririk. Amma nəticəsi yoxdur. Hətta təklif etmişik ki, orada bəlkə bir tərcümə qrupu yaradılsın. On dəfə deməyimizə baxmayaraq, heç bir nəticə yoxdur”.

**Siyavuş Novruzov deyib ki, bəzi partiyalar “Siyasi partiyalar haqqında” Qanunun müddəalarını pozur:** “Təəssüf ki, bir sıra özünü müxalifət partiyası adlandıran, lakin müxalifətçilik yox, dövlətə və millətə qarşı müxalifətçilik edən qruplar bu gün maliyyə hesabatı verməkdən boyun qaçırır. Onlara qarşı cərimələr müəyyənləşməlidir”.

**Qəbələ rayonunun bir qrup sakininin Ermənistana keçmək istəyi də parlamentdə müzakirə mövzusu olub. Bu barədə Qüdrət Həsənquliyev çıxışında bildirib:** “25 nəfər qəbələlinin düşmən tərəfə keçmək istəməsi mətbuatda göstərildi, amma onlara qarşı hər hansı bir tədbir görülmədi”. **Deputatın fikrincə, Cinayət Məcəlləsində dövlətə xəyanət maddəsi ilə onlar cəzalandırılmalı idi:** “Təəssüf edirəm ki, həmin şəxslər haqqında indiyə qədər heç bir tədbir görülməyib. Onlara qarşı dövlətə xəyanət işi ilə əlaqədar cinayət işi qaldırılmalıdır. Düşmən tərəfinə arvad-uşağını keçirən şəxsin oğlu bir illiyə tutulub. Yuxarı orqanlara şikayət etmək, məsələ qaldırmaq əvəzinə, düşmən tərəfə keçir. Bununla bağlı hüquqi prosedurlar edilməlidir. Yoxsa bundan sonra haqsızlıqla üzləşən şəxslər hüquqi prosedurları kənara qoyub, Ermənistan tərəfə keçəcək. Cəzanın da bir xəbərdarlıq nöqtəsi var. Satqınlar layiqli cəzasını almalıdır. Onların içərisində qadın və uşaqlara güzəşt ola bilər, amma işin təşkilatçılarını elə-belə buraxmaq olmaz. Həmin şəxslər cinayət məsuliyyətinə cəlb edilməlidir”.

**Q. Həsənquliyev həmçinin Novruz bayramı ərəfəsində gözlənilən əfv sərəncamından da danışıb. O, bəzi müxalif qrupların və onların nəzarətində olan mətbuatın bu sərəncama kölgə salmaq istədiyini də qeyd edib:** “Yazırlar ki, guya Qərb dairələri Azərbaycana bəzi şəxslərin əfv olunması üçün təsir edir. Onlar bunu yazmaqla yenə qıcıq yaradıb, həmin şəxslərin adının əfv siyahısına düşməsinə əngəl olmaq istəyirlər. Adlarını müxalifət qoyublar, amma başqalarının ağrı-acısı üzərində iş qurur, manipulyasiya edirlər. Mən çox xahiş edərdim ki, biz həmin şəxslərin adlarının əfv siyahısına daxil edilməsinə nail olaq. Eyni zamanda həmin müxalif qrupların da öz maraqları üçün insanların həbsdə qalmasına çalışdıqlarını ifşa edək. Qoy, həbsdə olan şəxslərin özləri də, onların ailə üzvləri və yaxınları da onların azadlığa çıxmasına mane olanları tanısınlar”.

Spiker də deputatın fikirlərini dəstəkləyərək bildirib ki, həmin şəxslərin hərəkətinə hüquq-mühafizə orqanları tərəfindən hüquqi qiymət verilməlidir. O. Əsədov deputatın əfv məsələsi ilə bağlı dediklərinə isə “heç bir dövlət Azərbaycanın daxili işinə təsir edə bilməyib, indi daxildə hansısa iki-üç müxalif mətbuat təsir edəcək?”-deyə, reaksiya verib.

Milli Məclis Ali Məhkəmənin hakimi İslam Əliyevin vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar məsələyə də baxıb. Parlament hakimin öz ərizəsinə əsasən onun tutduğu vəzifədən azad edərək Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri təyin edilməsinə müsbət rəy verib. İclasda 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi Müseyib Hüseynovun vəzifəsinin dəyişdirilərək Bakı Apelyasiya Məhkəməsinin hakimi təyin edilməsi məsələsinə də müzakirəsiz razılıq verilib.

❑ **Elşad PAŞASOY**

**Qarabağ əlili Quliyev Elşad Elbrus oğlunun iki azyaşlı uşağı və həyat yoldaşı qan xəstəliyindən əziyyət çəkir. Ailənin maddi durumunun çətin olması, orta məktəbdə təhsil alan uşaqların həm də müalicəsinin vacibliyi Qarabağ əlilini çıxılmaz vəziyyətdə qoyub.**





# İki uşağı xəstə olan Qabağ əlili kömək istəyir

## Elşad Quliyev: “İcra başçısının tapşırığına əməl edən yoxdur”

Hazırda Gəncə şəhər, Firdovsi küçəsi ev 12-də yaşayan E.Quliyev nə yaşadığı evin kirayə haqqını, nə də övladlarının müalicəsi üçün götürdüyü kredit borclarını ödəyə bilir. Qarabağ əlili düşdüyü çarəsiz vəziyyətlə bağlı müvafiq qurumlara müraciət etsə də, heç bir yardım ala bilmədiyini deyir.

E.Quliyev musavat.com-a müraciətində bir neçə həftə əvvəl Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin qəbulunda olduğunu və probleminin həll edilməsi ilə bağlı icra başçısının göstəriş verdiyini söyləyir. Lakin onun sözlərinə görə, icra başçısı tapşırıq versə də, digər məmurlar buna əməl etmir.

“3-4 həftə əvvəl icra başçısının qəbulunda oldum. Sağ olsun, bizi qəbul edib, dərdimizi dinlədi. Elmar Vəliyev Kəpəz rayonunun icra başçısına göstəriş verdi ki, problemlərimin həllində köməklik göstərsinlər. Lakin söz elə həmin otaqda qaldı. Sonradan icra başçısının qəbuluna düşməyə cəhd etsəm də, imkan vermədilər. İndi hara gedirəmsə, başlarından edirlər” deyə, Qarabağ əlili yerli məmurlardan şikayətini bildirir.

6 il əvvəl tikdirdiyi fərdi yaşayış evini sataraq uşaqlarının müalicəsinə xərclədiyini deyən E.Quliyev hazırda yaşadığı evin kirayəsini də ödəyə bilmir. Qarabağ əlili kimi 100 manat təqaüd alan E.Quliyevin əlavə qazancı isə Gəncədə məşğul olduğu kiçik ticarətdəndir.

1992-ci ildən Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edən, 772 saylı hərbi hissədə qulluq edən E.Quliyev 1994-cü ildə Ağdərə döyüşlərində yaralanıb.

Hərbi xidmətdə olduğu müddətdə tabor komandiri vəzifəsinə qədər yüksələn Qarabağ döyüşçüsü həmin illərdə müdafiə nazirinin fəxri fərmanına da layiq görülüb. Lakin E.Quliyev əlillik vəsiqəsini 2015-ci ildə ala bilib. Onun dediyinə görə, vəsiqəni əldə etmək üçün uzun müddət get-gələ salınıb. Nəhayət, ötən il əlillik vəsiqəsi ala bilib.







**Döyüşlərdə aldığı yaraların ağrısını indi də hiss edən E.Quliyevin həyat yoldaşı və hər iki oğlu qan xəstəliyindən əziyyət çəkir. Onların müalicəsi isə Qarabağ döyüşçüsünü çıxılmaz vəziyyətə salıb:** “6 il əvvəl tikdiyim evi satdım. Uşaqların müalicəsinə imkanım çatmırdı. Yoldaşım da eyni xəstəlikdən əziyyət çəkir. Banklardan öz adıma və qardaşımın adına kreditlər götürmüşəm. Başqa edə biləcəyim heç bir iş yox idi. İndi borclarımı da ödəyə bilmirəm. Tək istədiyim uşaqlarımın müalicəsidir. Onlara bu çarəsizliyi izah etmək olmur”.

Gəncədə məmurların qəbuluna düşə bilməyən Qarabağ döyüşçüsü Bakıya üz tutaraq Prezident Administrasiyasına yollanıb. Administrasiyada qəbulda olarkən oradan Gəncə Şəhər İcra Hakimiyyətinə zəng edilərək ona yardım edilməsi ilə bağlı tapşırıq veriblər. Lakin hələ də problemlərinin həllinə kömək edən yoxdur.

Gəncə Qarabağ Əlillər Cəmiyyətinin də fəaliyyətindən narazı olan E.Quliyev deyir ki, cəmiyyətə Qarabağ əlilləri üçün yardımlar edilsə də, onlara heç bir dəstək verilmir. Cəmiyyətə verilən yardımlar Qarabağ əlillərinə çatmır.

Qarabağ əlili kimi ev növbəsinə yazıldığını deyən E.Quliyev bildirir ki, ona növbədə 267-ci olduğu deyilib və gözləməsi məsləhət bilinib.

E.Quliyev Qarabağ əlilləri üçün nəzərdə tutulan xüsusi avtonəqliyyat vasitəsi almaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etsə də, bu günədək müraciətinə cavab ala bilməyib.

Artıq 3 gündür Bakıda olan Qarabağ əlili bu müddət ərzində bir neçə dəfə Prezident Administrasiyasına üz tutub. O ümid edir ki, Bakıda onun probleminin həllinə kömək edən tapılacaq.

❑ **İ.MURADOV**

# Qəzetlər 8 martı necə qeyd edəcək...




**Bir neçə gündən sonra ölkəmizdə 8 Mart Beynəlxalq Qadınlar Günü qeyd ediləcək. Maraqlıdır, ölkənin aparıcı mətbuat orqanları həmin günü necə qeyd edəcək?**

**“Yeni Müsavat” qəzetinin baş direktoru Ələsgər Süleymanov** bildirdi ki, ənənəvi olaraq redaksiya tərəfindən xanım əməkdaşlar təbrik ediləcək: “Təbii, çox istərdik ki, 8 Mart Beynəlxalq Qadınlar Gününü yüksək səviyyədə qeyd edək, ziyafət təşkil edək, xanımlara qonaqlıq verək, onlar üçün çox xoş olsun. Lakin təəssüf ki, indiki durumda maddi vəziyyətimiz buna imkan vermir. Buna baxmayaraq, həmişəki kimi bayramdan bir gün əvvəl redaksiyada xanımları təbrik edəcək, kiçik bir süfrə arxasına yığışıb qeyd edəcəyik”.

Ələsgər Süleymanov qeyd edib ki, böyük ehtimalla həmin gün qəzet fəaliyyət göstərməyəcək.

**“Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu** da açıqlama verərək bildirib ki, kollektiv xanım əməkdaşlara xüsusi hədiyyələr verəcək:

“Beləcə, ənənəmizə uyğun olaraq növbəti 8 mart qadınlar bayramını keçirmiş olacayıq”.

**“Gündəlik Teleqraf” qəzetinin baş redaktoru Aynur Camalqızı 8 mart bayramının qadınlar üçün xüsusi gün olduğunu vurğulayıb:** “Həmin gün nəşriyyatlar işləmədiyindən qəzetimiz dərc olunmayacaq. Saytımızda isə növbətçi redaktorlarımız olacaq, hansı ki, onlar qeyri-iş günlərində saytı idarə edirlər. Növbətçi redaktorları da adətən kişi həmkarlarımızdan seçirik. Beləliklə, xanım əməkdaşlarımız sözün əsl mənasında istirahət edəcəklər. Bayramın redaksiyamızda necə keçiriləcəyinə gəlincə, həmişə martın 7-də, yəni bayramdan bir gün əvvəl 8 martın fəlsəfəsinə, mahiyyətinə uyğun olaraq xanım əməkdaşlarımızı təbrik edir, onlara hədiyyələrimizi təqdim edirik. 8 mart qadınlar üçün xüsusi gündür. O baxımdan da düşünürəm ki, bu bizə çox gözəl bir fürsət verir ki, qadınlarımıza həmişə olduğundan daha fərqli bir münasibət cəlb edək”.

**“Bakı-Xəbər” qəzetinin baş redaktor Aydın Quliyev isə bildirib ki, bayram münasibətilə qeyri-adi bir tədbir olmayacaq:** “Ənənəvi olaraq kollektiv tərəfindən redaksiyanın qadın üzvlərini təbrik edəcəyik”.

❑ **Xalidə GƏRAY**

# Nazirliyin idarə rəisi özünü körpüdən atmaq istədi

## Yavər Camalovun nazirliyində nə baş verir?




**Müdafiə Sənayesi Nazirliyinin təhlükəsizlik idarəsinin rəisi Orxan Ağazadə intihara cəhd edib. Martın 3-dən 4-nə keçən gecə Cavanşir körpüsünün üstünə çıxan idarə rəisi oradan özünü atmaq istəyib. O.Ağazadəyə ərazidən keçən polis əməkdaşları mane ola biliblər. Saxlanılan idarə rəisi polisə aparılıb. Olayın hansı səbəbdən baş verdiyi araşdırılır.**

Musavat.com-un əməkdaşı olayla bağlı Müdafiə Sənayesi Nazirliyi ilə əlaqə saxlayıb dəqiqləşdirmə aparmağa cəhd edib. Lakin qurumdan telefonlara cavab verən olmayıb.

Nizami Rayon Prokurroluğundan isə olayla bağlı araşdırma aparıldığı, O.Ağazadənin iş yerindəki mübahisə zəminində belə bir addım atmağa qərar verdiyini bildiriblər. Qeyd ediblər ki, araşdırma sonucunda hansı tədbirin görüləcəyi qərarlaşdırılacaq.

❑ **E.HÜSEYNOV**

# Azərbaycan və ABŞ hökumətləri Şirvanda birgə sosial layihə həyata keçirir

**Şirvan şəhərinin Birlik icması 1000 nəfərin həyat səviyyəsini yaxşılaşdıracaq dam örtüklərinin yenilənməsi layihəsini tamamlayıb. Bu layihə Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) adlı layihə tərəfindən icra olunub və ABŞ və Azərbaycan hökumətləri tərəfindən birgə maliyyələşib.**



Bu barədə ABŞ səfirliyindən verilən məlumatda bildirilir: “Uzun illər Şirvan şəhərində beş binada yaşayan sakinlər 40 il öncə qurulmuş və o vaxtdan təmir olunmamış dam örtüklərinin qəzalı vəziyyətə düşməsindən əziyyət çəkiblər. Yağışlı havada damdan sızan su döşəmələri, mebeli və digər ev əşyalarını yararsız hala salırmış. Bu şərait həmçinin sakinlərin, xüsusilə uşaqların və yaşlıların səhhətinə mənfi təsir göstərirdi. Bu problemi həll etmək üçün SEDA beş çoxmənzilli binanın dam örtüklərini yeniləməyə və bununla sakinləri təhlükəsiz şəraitlə təmin etməyə yardım göstərdi.

“USAID-in bütün dünyada məqsədi həyat səviyyəsini yaxşılaşdırmaq və öz sosial-iqtisadi ehtiyaclarını ödəməkdə imkan yaratmaq üçün icmalarla sıx işləməkdir. Biz çox şadıq ki, Birlik icmasının sakinlərinə kömək edə və bu prosesə töhfə verə bilmişik”, deyə USAID-in Azərbaycandakı ofisinin Demokratiya və İdarəçilik şöbəsinin direktoru Kristofer Şaffer bildirib. Həmçinin o, layihələri həyata keçirmək üçün öz resurslarını səfərbər etdiklərinə görə icmanın sakinlərinə təşəkkürünü ifadə edib.



2011-ci ildən SEDA layihəsi Azərbaycanın 53 icmasında 85,000-dən çox insana fayda verərək 60 icma layihəsinin maliyyələşdirilməsinə 1,200,000 ABŞ dollarından artıq vəsait xərcləyib. SEDA icmalarda sosial-iqtisadi inkişafı artırmaq üçün vətəndaşların, vətəndaş cəmiyyəti təşkilatlarının, habelə yerli və mərkəzi hökumət nümayəndələrinin birgə iştirakını təşviq edir. Bu layihə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşir və İqtisadiyyat Nazirliyi və Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Şərq-Qərb İdarəetmə İnstitutu (EWMI) tərəfindən həyata keçirilir.

**2016-ci ilin Dağlıq Qarabağ üçün qiymətli olan ilk iki ayı arxada qaldı. Yaxın Şərq (Suriya) münaqişəsi fonunda Qarabağ məsələsi qlobal güclər üçün indi daha da arxa plana keçirilmiş kimi görünür - hərçənd son vaxtlar istər Rusiya, istərsə də Qərb analitikləri səviyyəsində Qarabağ münaqişəsi zonasında yeni müharibə barədə intensiv xəbərdarlıqlar eşidilməkdədir.**



# "Azərbaycan Qarabağı bir neçə günə geri ala bilər..."

**Rusiya nəşri:** "Bakını hücumdan ancaq Rusiya amili çəkindirir"; bölgədə sülh, yoxsa hərb məsələsi indi həm də... Donbasda həll olunur; Kremlin Qərblə Ukraynaya dair siyasi bazarlığı işğal altındakı torpaqlarımızın da taleyinə təsirsiz ötüşməyəcək...

Bu da təbiidir, çünki hər hansı sülhün alternativi, dondurulan konfliktin qarşılığı müharibədir. Bir sıra təhlilçilərə görə, Dağlıq Qarabağ probleminin aqibəti əslində həm də Suriyada həll olunur. Daha doğrusu, Rusiyanın Suriya böhranından necə ayrılacağı bilavasitə bu konfliktə də təsirsiz ötüşməyəcək, ona görə ki, məsələdə Moskva hələ də həlledici söz sahibidir. Analitiklər hesab edir ki, sanksiyaların ağır yükü altında olan Rusiya Suriya böhranının siyasi həllinə köməyin qarşılığında Ukrayna və Güney Qafqazda Qərbdən güzəşt qoparmaq niyyətindədir.

Bir neçə dəfə yazmışıq, bir daha vurğulayaq ki, postsovet məkanındakı Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə problemləri Ukrayna məsələsinin necə yoluna qoyulacağından xeyli dərəcədə asılı olacaq. Bu xüsusda əcnəbi siyasi şərhçilər də zaman-zaman mövzunu diqqət mərkəzinə gətirir, Kremlin "Yaxın xaric"lə, xüsusən də Ukrayna ilə bağlı mümkün planlarından söz açırlar.

***

"Kreml Suriyanı bombardman etməklə Ukrayna üzrə güzəştlərə nail olmaq istəyir". "Defense News" nəşrinin yazdığına görə, belə bir sensasion açıqlamanı **ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) Kəşfiyyat İdarəsinin direktoru, general-leytenant Vinsent Stüart** verib. Onun əminliyinə görə, Rusiyanın Suriyada həyata keçirdiyi hərbi əməliyyatların hədəfi beynəlxalq ictimaiyyətin diqqətini Donbas münaqişəsindən yayındırmaqdır. Rusiya aviasiyası tərəfindən Suriyanın bombardman edilməsi beynəlxalq cəmiyyətdən Ukrayna münaqişəsi üzrə güzəştlərin alınması üçün həyata keçirilən "Böyük plan"ın bir hissəsidir" - deyib Stüart.

Onun sözlərinə görə, Rusiya Avropanı qorxutmaq məqsədilə qəfil hərbi təlimlərdən istifadə edir. "Bu yaxınlarda qəfildən həyata keçirilən təlimlər həqiqi və təhlükəli idi. Mən təxminən 20 il ərzində çətinlik səviyyəsi bu qədər yüksək olan təlimlər görməmişdim", - Pentaqonun kəşfiyyat direktoru qeyd edib.

Amerika kəşfiyyatının başçısı həmçinin, gələcəkdə Rusiya qoşunlarının sayca daha az olacağını istisna etmir. Amma onun fikrincə, Rusiya ordusu hərbi əməliyyatlara daha hazır vəziyyətdə olacaq. Ancaq amerikalı general onu da vurğulayıb ki, Rusiyanın yenidən silahlanma proqramı sənaye istehsalının düşməsinə gətirəcək və iqtisadiyyatın durumunu daha da ağırlaşdıracaq.

Rusiyanın iqtisadi durumunun pisləşməsi isə sözsüz ki, onun xarici siyasət kursunun kəsərini də azaldacaq. Çünki güclü xarici siyasətin arxasında bir qayda olaraq, iqtisadi qüdrət dayanır. Söhbət Rusiyadan gedirsə, bu da faktdır ki, Moskva tarixən bənzər hallarda diqqəti daxildən yayındırmaq üçün xarici hərbi avantüralara da əl atıb. Ekspertlərin Qarabağda müharibə xəbərdarlıqlarını yəqin ki, həm də bu kontekstdə ciddiyə almaq lazım gəlir.




***

Bu arada Rusiya mediası baş nazirin müavini, Rusiya hərbi-sənaye kompleksinin əsas adamı Dmitri Roqozinin təzəcə başa çatan Bakı səfəri ilə bağlı Qarabağ məsələsi kontekstində maraqlı şərhlər verib.

**Məsələn, "Russkaya planeta" dərgisi yazıb ki, 2010-2014-cü il ərzində Rusiya və Azərbaycan 4 milyard dollar məbləğində bir neçə böyük razılaşma imzalayıb.** "Bakı silahların geniş spektrini almağa qərar verib: zenit-raket kompleksləri (S-300PMU-2, "Tor-2ME"), özüyeriyən artilleriya qurğuları ("Msta-S"), ağır odnemyot sistemləri ("TOS-1A"), yaylım atəşinin ("Smerç") reaktiv sistemləri, tanklar (T-90S), zirehli avtomobillər və təxminən yüzə yaxın döyüş və nəqliyyat vertolyotu. "Global Fire Power" reytinqində Azərbaycan ordusu dünyada 64-cü, Ermənistan ordusu isə 74-cü yerdədir. Ermənistan bütün hərbi göstəricilər üzrə Azərbaycandan xeyli geri qalır. Rusiyanın Azərbaycana hücum silahları satmasına ilk növbədə Qarabağ münaqişəsi kontekstində baxmaq lazımdır. Çünki bu silahlanma irimiqyaslı regional müharibəyə səbəb ola bilər" - ardınca portal qeyd edib.

**Nəşr Azərbaycanın hərbi büdcəsinin Ermənistanın ümumi büdcəsindən artıq, hərbi büdcəsindən isə 13 dəfə böyük olduğunu xatırladaraq, vurğulayıb ki, Ermənistanın bərbad gündə olan iqtisadiyyatı ordunun döyüş qabiliyyəti səviyyəsini aşağı salır.** "Azərbaycanın ordusunu gücləndirməsi şübhəsiz ki, Qarabağda müharibəyə hazırlıqdır. Azərbaycan ən azından Qarabağı geri qaytarmaq istəyir"- deyə internet portalı yazıb.

Portal bu haqda hərbi ekspertlərin fikirlərini də sitat gətirərək yazıb ki, Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin təzyiqi qarşısında dayanmayacaq. "Bakını hücumdan ancaq Rusiya qorxusu çəkindirir. Ancaq Moskvanın Ermənistanı müdafiə etməsi asan olmayacaq. Çünki Ermənistanla birbaşa sərhədi yoxdur. Gürcüstan isə quru qoşunlarına dəhliz verməyəcək. O halda Rusiya ancaq desant əməliyyatları, havadan dəstək və Xəzərdən zərbələrlə kifayətlənməli olacaq. Ancaq bu, vəziyyəti dəyişməyə kömək edəcəkmi? Söyləmək çətindir. Əgər Türkiyə də dəstək versə və Gürcüstan neytral qalsa, Azərbaycan ən azı Qarabağı bir neçə günə tutacaq. Rusiyanın isə variantları çox deyil. Ona görə də indidən Bakıdan qarantiya almaq lazımdır ki, müharibəyə başlamasın. Əks halda, Azərbaycan rus silahları ilə erməniləri öldürəcək"- əlavə edib "Russkaya planeta".

***

Rusiya mediasındakı şərhlərdən də bir daha qənaət hasil olur ki, postsovet məkanının ən üzücü və dağıdıcı konfliktini olan Qarabağ ixtilafını tarixin arxivinə verməyə ən böyük maneə işğalçı Ermənistan yox, onun arxasında duran Rusiya amilidir. Bu amili hələ ki, hərbi vasitələrlə neytrallaşdırmaq riskli görünür, sülh yolu isə illərdir səmərə vermir.

Deməli, Azərbaycan yeni və daha uğurlu həll formatları axtarmaq və Moskva ilə münasibətləri normal saxlamaqla yanaşı, öz ərazilərini güc yolu ilə geri almaq üçün əlverişli fürsəti gözləmək zorundadır. İkinci variantın reallaşması üçün ölkəmizin NATO üzvü olan qardaş Türkiyə ilə hərbi sahədə əməkdaşlığı və təcrübə mübadiləsini ilbəil genişləndirməsi xüsusi önəm daşıyır - Rusiya bundan xoşlanmasa da.

Əslində Bakının Moskvaya son etiraz notasında sonuncuya ünvanlanan əsas mesaj bu idi ki, Rusiya işğalçı Ermənistanı silahlandırdıqca Azərbaycan da Türkiyə ilə hərbi müttəfiqliyini gücləndirəcək. Martın 7-də iki qardaş dövlətin Türkiyədə növbəti birgə təlimləri başlayır...




## Qarabağın qaytarılmasını istəyən erməni ölkəsindən qaçdı - ölüm təhdidi

**Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışan Ermənistan vətəndaşı, tanınmış ictimai xadim Qeorqi Vanyan ölkəsindəki təqiblərdən qaçaraq Almaniyaya sığınıb (publika.az). Ermənistanda təqiblər və ölüm təhdidi ilə üzləşən Q. Vanyan "Hamburger Stiftung für politisch Verfolgte" Fondunun dəstəyi ilə Hamburga köçüb.**

Xatırladaq ki, Vanyan münaqişənin sülh yolu ilə həllinin, həmçinin vətəndaş diplomatiyasının inkişaf etdirilməsinin tərəfdarıdır. "Lakin Ermənistan hökumətində təmsil olunan millətçilər siyasi fəalı öldürməklə hədələyir", - deyə məlumatda qeyd edilir.

Fond onu da yada salır ki, Q. Vanyan 2012-ci ildə Azərbaycan filmlərinin festivalını təşkil etməyə cəhd edib: "Lakin erməni millətçiləri bunun qarşını aldılar. Telefon danışıqları və internet yazışmalarında millətçilərin Vanyanı öldürməklə hədələdiyi ortaya çıxdı. Hətta festivalın rejissoruna fiziki hücumlar da edilib. Ermənistan telekanalları onu "milli satqın" kimi damğalamağa başladılar. Daha sonra onun yaşadığı evə hücumlar edildi. İndi biz çox şadıq ki, Vanyan təhlükəsiz şəkildə yaşaya biləcək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Bakıda canımıza qəsd edən tikinti şirkətləri

## Onların elementar təhlükəsizlik qaydalarına riayət etməməsinin altını çox vaxt piyadalar çəkir; üstünə daş düşən 73 yaşlı qadın: "Hər gün getdiyim yolda..."

**Bakıda tikinti sektorunda özbaşınalığın olması, nəzarətsizliyin hökm sürməsi bir çox problemlərin yaranmasına səbəb olur. Bu problemlərin başında isə tikinti aparılan ərazilərdə təhlükəsizlik tədbirlərinə əməl olunmaması gəlir. Nəzarətsizliyin nəticəsi isə təbii ki, ağır olur. Ya tikintidə çalışan fəhlələr, ya da inşaatın yaxınlığından keçən insanlar xəsarət alır və ya dünyasını dəyişir.**



Tikinti sahələrində vəziyyəti həm də Bakının sərt küləyi təhlükəli edir. Belə faciələrdən birinə təəssüf ki, bu yaxınlarda şahidlik etdik. Parlament prospektində 20 nömrəli məktəbin yeni binasının inşası zamanı ərazinin yaxınlığındakı iki piyada qadının başına dəmir borular düşdü. Nəticədə onlardan biri hadisə yerindəcə dünyasını dəyişdi, digəri isə ağır yaralandı.

Artıq uzun illərdir ki, paytaxtın istənilən yerində ticarət obyektlərinin, yaşayış binalarının tikintisi sürətlə davam edir. Tikinti gedən ərazilərin böyük əksəriyyəti də insanların sıx hərəkət etdiyi piyada yollarının, avtomobil yollarının yaxınlığındadır. İnşaat ərazilərində istər fəhlələrin, istərsə də yoldan keçən insanların təhlükəsizliyinin təmin edilməməsi baş verən qəzalardan sonra bir daha gün üzünə çıxır.

İndi də davam edən inşaat işlərinə nəzər yetirdikdə şirkətlərin təhlükəsizlik qaydalarına əməl etməyini açıqca görmək mümkündür. Bu, həm şirkətlərin məsuliyyətsizliyi, həm də tikinti sahəsində təhlükəsizliyə nəzarət etməli olan qurumların laqeydliyindən irəli gəlir.

Bakıda davam edən tikintilərə nəzarətdə "ayrı-seçkilik" də hökm sürür. Bu da ondan ibarətdir ki, şəhərin mərkəzində və paytaxtdan kənarda fərqli mənzərə var. Paytaxtın mərkəzi küçələrində davam edən inşaat işlərində təhlükəsizlik tədbirlərinin qismən yerinə yetirildiyini görmək mümkündür. Tikinti gedən sahənin ətrafı xüsusi örtüklə bağlanır, piyadaların hərəkəti üçün nəzərdə tutulan yolda təhlükəsizlik tədbirləri görülür. Bu sadaladıqlarımızı "Sahil" metro stansiyasının çıxışındakı hündürmərtəbəli binanın tikintisi zamanı da müşahidə etmək olar. İnşaat ərazisində təhlükəsizlik qaydalarına tam şəkildə əməl olunduğunu demək mümkündür.

Lakin paytaxtdan uzaqlaşdıqca bu sadaladıqlarımızı görmək demək olar, mümkünsüzdür. Tikinti şirkətləri öz bildikləri şəkildə işlərini davam etdirirlər. Nə təhlükəsizlik zolağı var, nə də piyada yolu. Piyadalar da məcburən inşaat gedən ərazidən keçməli olurlar.

Bu fərqli mənzərəni Nəsimi rayonu, 5-ci mikrorayon ərazisində də görmək olar. Burada davam edən inşaat işlərində demək olar ki, bütün qaydalar pozulur. Nə fəhlələrin, nə də piyadaların təhlükəsizliyi nəzərə alınır.

Belə binaların biri də rayonun 20 yanvar küçəsi ilə Cavadxan küçələrinin kəsişdiyi ərazidə inşa edilir. Tikintisinə 2013-cü ildə başlanılan yaşayış binası az qala iki insanın həyatına son qoyacaqdı. Hazırda tikintisi davam edən binanın yaxınlığında yaşayan 73 yaşlı Sevil Vəliyeva 12 yaşlı nəvəsi ilə inşaat ərazisinin yaxınlığından keçərkən üstlərinə daş düşüb.








S.Vəliyeva musvat.com-a açıqlamasında hadisənin təfərrüatlarını danışıb. Belə ki, ötən ilin dekabr ayında nəvəsi ilə evinə gələn S.Vəliyevanın üstünə yolda tikintisi davam edən hündürmərtəbəli binadan daş düşüb. Xoşbəxtlikdən 12 yaşlı qız xəsarət almayıb. Daş 73 yaşlı qadının əlinə və bel nahiyəsinə dəyib.

**73 yaşlı qadın hadisənin baş verdiyi anı belə xatırlayır:** "Hər gün getdiyimiz yoldur. Nəvəmi məktəbə mən aparıb gətirirdim. Binanın qarşısından keçəcək başqa yol da yoxdur. Hər kəs məcbur qalıb həmin yolu seçir. Binanın yanından keçərkən yuxarıdan daş düşdü. Bəxtimiz gətirdi ki, uşağa dəymədi, mənim də başıma düşmədi. Baş barmağım çatlamışdı. Belimdə də ciddi zədə əmələ gəlib. İki aya yaxındır ki, belimdən müalicə olunuram".

Sakinlərin sözlərinə görə, hazırda bina inşa edilən ərazi əvvəl yaşıllıq olub. Tikinti başlayan zaman sakinlər rayon icra hakimiyyətinə müraciət ediblər. Həmin yaşıllıq məhv edilərkən sakinlərə bildirilib ki, ərazidə dövlət əhəmiyyətli bina tikiləcək. Lakin həmin bina sonradan yaşayış binası "olub".

Tikinti başlayandan bu günədək ətrafda heç bir təhlükəsizlik zolağı çəkilməyib. İnşaat gedən ərazinin yaxınlığında 54 saylı orta məktəb və xeyli sayda yaşayış binası var. Və hər gün bu ərazidən yüzlərlə insan keçir.

Zərərçəkmiş S.Vəliyeva qarşılaşdığı hadisənin hər an başqa sakinlərin də başına gələ biləcəyini deyir: "Güclü külək əsəndə də binadan tikinti materialları tökülür. Mən özüm oradan keçməkdən qorxuram. Buradan məktəblilər də keçir. Amma indiyədək tədbir görən yoxdur".

S.Vəliyeva xəsarət aldıqdan sonra binanın sahibinə yaxın olan şəxslər yaşlı qadının evinə gələrək şikayət etməməsini xahiş ediblər. Bunun üçün ona pul da təklif olunub. Lakin S.Vəliyeva deyir ki, o bundan imtina edib və yalnız müalicə xərclərinin qarşılanmasını istəyib. Ancaq qarşı tərəf daha sonra bundan imtina edib. Hazırda yaşlı qadın öz hesabına müalicəsini davam etdirməyə çalışır.

Hazırda Bakının müxtəlif yerlərində tikinti işlərinin davam etdirildiyini nəzərə alsaq, bu cür faciələrlə yenə də qarşılaşmağımız gözlənilməz olmayacaq. Çünki qeyd etdiyimiz kimi, tikinti sahəsində təhlükəsizlik qaydalarına əməl edilmir. Tikinti şirkətlərinin özbaşınalığı, müvafiq qurumların məsuliyyətsizliyi hələ çox faciələrə səbəb ola bilər. Bizə düşən isə öz təhlükəsizliyimizi özümüzün təmin etməsidir. Tikinti gedən ərazilərdən keçərkən özünüzü qoruyun!

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


**Elan**

**İbrahimova Fatma Hümbət qızına, İkinci Şıxlıdan DÖVLƏT AKTI J N 343 saylı sənəd itdiyi üçün etibarsız sayılır.**


bakcell

## «Bakcell» və «Wayra UK» yerli developerlərə öz ideyalarını təqdim etmək və investisiyalar əldə etmək imkanı yaradırlar

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti "Telefonica Open Future" proqramının startaplar üçün akselerasiya proqramı kimi bir hissəsi olan Wayra UK şirkəti ilə birlikdə Azərbaycanın bütün gənc developer və sahibkarları üçün yeni bir imkan haqqında böyük məmnuniyyətlə elan edərək, onları öz ideyalarını təqdim etmək üçün müsabiqədə (pitch day) iştirak etməyə dəvət edir.**

**Applab layihəsi innovasiyaların inkişaf etdirilməsini və Azərbaycanın bütün gənc developerləri və sahibkarları üçün yeni imkanların yaradılmasını qarşısına məqsəd qoyur. «Applab» və «Wayra UK» şirkəti informasiya texnologiyaları sahəsindən olan bütün yerli startapları öz ideyalarını təqdim etmək üçün müsabiqədə (pitch day) iştirak etməyə dəvət edir. Seçilmiş ideyalar/layihələr «Applab»ın akselerasiya proqramında iştirak etməyə dəvət olunacaq və bu, onların «Wayra UK» tərəfindən maliyyələşdirilməsinə potensial imkan yaradacaqdır.**

**İdeyalar 13 mart 2016-cı il tarixindən gec olmayaraq applab@«Bakcell».com ailto:applab@«Bakcell».com ünvanına təqdim olunmalıdır.**

**"AppLab" regional səviyyədə ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə buraxılan tam hazır varianta qədər çatdırılmasında seçilmiş developerlərə kömək etmək üçün nəzərdə tutulan sürətləndirilmiş icra modelidir. Ötən bir il ərzində proqram gənc yerli developerlərin öz ideyalarını yerli və beynəlxalq səviyyəli mobil applikasiyalara tətbiq etmələri üçün unikal bir mühit olduğunu sübut edib. Bu günə qədər "Applab" layihəsi çərçivəsində təqdim olunan 150-dən çox ideyanın qəbul əmsalının 10%-dən az təşkil etməsi yalnız keyfiyyətli ideyaların seçilməsi üçün zəmin yaradıb.**

**"Applab" layihəsinin çərçivələri daxilində və xaricində bu cür yeni və parlaq ideyaların meydana gəlməsini müşahidə etmək olduqca sevindirici haldır. Biz oyunlar, təhsil, səyahət və turizm, məhsuldarlıq, musiqi, kitablar və digər məqsədlər üçün yaradılmış müxtəlif proqramlar gördük. «Bakcell» bu proqramları yaratmaq üçün iş məkanı və alətlər təqdim etməklə yanaşı gənc istedadları təlimatlandırır, onlara ideyalarını monetizasiya edə bilməsi məqsədilə biznes yanaşmasını aşılayır",-deyə «Bakcell» şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.**

**«Bakcell» və Wayra UK şirkətləri arasında əməkdaşlıq əlaqələri 2015-ci ilin sonlarından başlamışdır. Bu əməkdaşlığın əsas məqsədi yerli layihələri potensial investorlara və tərəfdarlara nümayiş etdirməkdir. Wayra UK qlobal sahibkarlıq və innovasiya şəbəkəsi olan "Telefonica Open Future" proqramının startaplar üçün akselerasiya proqramı kimi tanınan bir hissəsidir. Applab, «Bakcell» və Wayra UK Azərbaycanın bütün gənc developerlərinə və sahibkarlarına öz ideyalarını təqdim etmələrinə və müdafiə etmələrinə imkan yaradırlar.**

**2012-ci ilin sentyabr ayında İrlandiyada fəaliyyətinə başlamış Wayra şirkəti Telefonica şirkətinin rəqəmsal texnologiyalar sahəsində çalışan startaplar üçün həyata keçirdiyi qlobal akselerasiya proqramının bir hissəsidir. Hal-hazırda Avropanın və Latın Amerikasının 12 ölkəsində Wayra şirkətinin 14 akademiyası fəaliyyət göstərir. Wayra "bulud" (cloud) xidmətləri, maliyyə xidmətləri, M2M, rəqəmsal təhlükəsizlik, elektron səhiyyə, mobil tətbiqlər, sosial şəbəkələr və elektron təhsil sistemi kimi sahələrdə iki ildən az olaraq erkən mərhələdə fəaliyyət göstərən texnologiya startaplarına hədəflənmişdir.**

**"Applab" icmasına qoşulmaq istəyən gənc developerlər http://applab.«Bakcell».com/registration/ linkinə daxil olub qeydiyyatdan keçməklə ideyalarını təqdim edə bilərlər.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Elan**

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işıgı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**
**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**
**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

YENİ MÜSAVAT
N 52 (6373) 5 mart 2016

**Son dövrlər müəllimlərin, məktəb rəhbərliklərinin adı tez-tez cinayət olaylarında hallanır. Təkcə rayon deyil, Bakı məktəblərində də müəllimlər tərəfindən şagirdlərə qarşı kobud, aqressiv davranışlar nümayiş edilməsi, döyülmə faktları artıb. Məsələn, bugünlərdə Bakı məktəblərinin birində şagird direktor tərəfindən döyüldüyü üçün intihara cəhd etmişdi.**

# Müəllimlərin adı keçdiyi cinayətlərin sayı niyə artıb?

## Məlahət Mürşüdlü: "Məktəb psixoloqlarının əksəriyyəti məktəb direktorlarının ikinci katibəsi rolunda iştirak edir"

Müəllimlərin özlərinə qəsd etməsi və yaxud başqalarını öldürməsi halları da çoxalıb. Hadisələri araşdıranda məlum olur ki, intihar edənlərin əksəriyyəti maddi problemlər yaşayan, kredit borcları olan müəllimlərdir. Bu cür hadisələrdən bəlkə də ən dəhşətlisi ötən aylarda Neftçala şəhərində baş vermişdi. Şəhərin 4 saylı tam orta məktəbində təsərrüfat işləri üzrə direktor müavini işləyən 63 yaşlı, dörd qız atası Alik Mustafa oğlu Novruzov məktəbin qazanxanasında özünə od vurub yandıraraq intihar etmişdi. İlkin ehtimallara görə, Alik Novruzovun intihar səbəbi külli miqdarda borcu olması olub.

Lerik rayonu Veri-Əliabad kənd məktəbinin direktoru Adil Rəhimovun öz qonşusunu bıçaqlaması və sonradan intihar etməsi də bu problemə diqqəti artırır. Şahidlərin dediyinə görə, direktor aralarında olan torpaq davasına görə qonşusunu bıçaqlayıb. Qanlı hadisənin ardınca isə direktor odlu silahla özünü öldürüb.

**Bəs görəsən, müəllimlərin adı keçdiyi cinayətlərin sayı niyə artıb?**

**Təhsil eksperti Məlahət Mürşüdlü sualımıza aydınlıq gətirməyə çalışıb. Ekspert müəllimləri neqativ davranışlara sövq edən problemlər barədə bunları deyib:** "İstər məktəb, istərsə də müəllim cəmiyyətdən kənarda mövcud deyil. Əlbəttə ki, cəmiyyətdə baş verən müxtəlif proseslər, ağır sosial problemlər, əmək haqqının az olması müəllimə də, məktəbə də öz təsirini göstərir. Devalvasiya istər müəllim, istərsə də digər sahələrdə çalışan insanlara, ailələrə birbaşa psixoloji təsir edən amillərdən biridir. Nəticədə insanlar yaranmış psixoloji gərginlik, sarsıntıdan çıxmağı başqalarına kobud şəkildə tətbiq etdikləri metodlarda görürlər.



Buna görə də tez-tez eşidirik ki, orta məktəb direktorları adam öldürür, müəllimlər şagirdlərə aqressiv yanaşır, şagird döyülmələri baş verir".

**Məlahət Mürşüdlü problemdən çıxış yolu haqda da danışıb:** "Bütün məktəblər tam olmasa da psixoloq ştatı ilə təmin edilir. Lakin təəssüf ki, məktəb psixoloqları öz vəzifələrini yerinə yetirmirlər. Bir çox hallarda onlar məktəb direktorlarının ikinci katibəsi rolunda iştirak edir və bununla da öz vəzifələrini bitmiş hesab edirlər. Təkcə şagirdlər deyil, müəyyən sarsıntı keçirmiş müəllimlər də psixoloq məsləhətinə müraciət edə bilərlər. Ayrı-ayrı məktəblərdə bu proses gedir. Lakin bizim cəmiyyətimizdə bu proses hələ ki kütləvi hal almayıb. Çünki orta məktəblərdə çalışan psixoloqların özlərinin səviyyəsi qənaətbəxş deyil. Azərbaycanda ödənişli və ya ödənişsiz çoxlu sayda psixoloji mərkəzlər var, hansı ki, orda çox savadlı, işini, peşəsini bilən istedadlı, gənc psixoloqlar fəaliyyət göstərir. Müəllimlər bu cür mərkəzlərə müraciət edə bilərlər. Çox təəssüf ki, müəllimlər bir çox hallarda ictimaiyyətdə qınaqla rastlaşacaqlarından, başqalarının onlar barəsində nə düşünəcəyindən çəkinərək bu addımı atmırlar".

❑ **Xalidə GƏRAY**

# Qeyri-neft sektorunun çiçəyi - güllərimiz niyə solub...

## İqtisadçı ekspert: "Bu sahənin inkişafı üçün dövlət istəyinə və vergi güzəştlərinə ehtiyac var"





**Azərbaycanda satılan güllərin əksəriyyəti Hollandiya, Fransa, İspaniya, İran və Türkiyədən gətirilir. Halbuki Azərbaycanın iqlimi və münbit torpağı ölkədə bu sahənin inkişafını mümkün edir. Hətta elə gül növləri var ki, onları yalnız Azərbaycanda yetişdirmək mümkündür. Vaxtilə Abşeron, Zabrat, Maştağa, Nardaran, Bilgəh, Mərdəkan və Şüvəlan ərazilərində gülçülük sovxozları fəaliyyət göstərib. Şəki-Zaqatala bölgəsində isə respublikada ilk dəfə olaraq sənaye xarakterli gülçülük təsərrüfatı olub. Bakı kəndlərindəki gülçülük təsərrüfatları Azərbaycanla yanaşı, keçmiş Sovet İttifaqını güllə təmin edirdi. Sovet İttifaqı dağılandan sonra ölkəmizdə gülçülük təsərrüfatı geriləməyə başladı. İndi bu sahə demək olar ki, yox dərəcəsindədir.**

Hazırkı iqtisadi krizis dönəmində qeyri-neft sektorunun inkişafından söhbət gedirsə, gülçülük bu sahənin inkişafında əsas rol oynaya bilər. Qeyd edək ki, gülçülük sektoru bir sıra ölkələrdə iqtisadiyyatın aparıcı sahələrindən biridir və bu sahə ilə milyardlar qazanılır. Dünyada sənaye gülçülüyü və bəzək bitkiləri sahələri bir-birindən ayrılır. Sənaye gülçülüyü ətriyyat sənayesi üçün gül suyu istehsalı ilə məşğul olur. Bəzək bitkiləri sektoru isə bəzək güllərinin və bitkilərinin yetişdirilməsi üzrə ixtisaslaşır. Dünya təcrübəsində bəzək bitkiləri sektoru kəsilmiş çiçəklər, daxili məkanı bəzəyən bitkilər, xarici məkanı bəzəyən bitkilər və yabanı soğanaqlı çiçək bitkilərinə, məsələn, lalə, zanbaq, nərgiz və sairə siniflərinə bölünür. Hollandiyanın Rabobank təşkilatının araşdırmalarına görə, dünyada bəzək bitkiləri sektorunun illik gəliri 50 milyard dollardan çoxdur. Bu məbləğin içərisində kəsilmiş çiçəklər 24,7 milyard dollar ilə ilk sırada gəlir. Dibçək gülləri 14.3 milyard dollar, kiçik bəzək ağacları 7.6 milyard dollar, yabanı soğanaqlı çiçək bitkiləri 0.9 milyard dollar bazar həcminin olduğu ehtimal olunur. Dünyada kəsilmiş güllərin ixracında Avropada Hollandiya (59%), Amerikada Kolumbiya (12%) və Ekvador, Afrikada Keniya, Zimbabve, Zambiya, Asiyada Tayland ön sıradadır. Dibçək güllərinin ixracında isə Hollandiya (48%), Danimarka (16%), Belçika (10%) ilk sıralarda gəlir. Təəssüflər olsun ki, Azərbaycan gəlirli sahə olan gülçülükdə geri sıralarda durur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2012-ci ildə ölkəmizə 20,34 milyon dollar dəyərində canlı ağaclar, kök yumruları, köklər, kəsilmiş çiçəklər, dekorativ bitkilər və digər bitkilər idxal edilib. İdxal əvvəlki ilə nisbətən 23 faiz artıb. Azərbaycanın gül ixracı isə 60 faiz azalaraq 36,15 milyon dollardan 14,17 milyon dollara geriləyib. Mütəxəssislər 20-25 öncəsi ilə müqayisədə hazırda Azərbaycanda 10 faiz gülçülüyün qaldığını deyirlər. Hazırda gülçülük bağlarının yerini istixanalar əvəzləyib. İndi güllər yalnız ayrı-ayrı şəxslərə məxsus istixanalarda yetişdirilir. Bir çox şəxslər gülçülüyün inkişaf etməməsini buna marağın az olmasında görür, bir çoxları isə gül biznesinin də monopoliyaya alınmasında.

**İqtisadçı ekspert Natiq Cəfərli bu sahəni tədricən dirçəltməyin mümkün olduğunu bildirdi:** "Bu sahənin inkişafı üçün həm dövlət istəyi lazımdır, həm də vergi güzəştlərinə ehtiyac var. Sovetlər dönəmində həddindən artıq qapalı sistemdə olmağımıza baxmayaraq, Azərbaycan Sovet İttifaqını güllə təmin edən əsas respublikadan biri idi. Azərbaycanda hər il 10 milyonlarla vəsait xərclənir gül bayramı keçirilir. Bu bayramda güllər xaricdən gətirilir. Son gül bayramında rəsmi açıqlamada var idi ki, güllər 25-dən çox ölkədən gətirilib. Dövlət daxildə fermerlərə dövlət sifariş versə, ödənişlərin bir qismi də əvvəlcədən olsa, düşünürəm ki, bu çox ciddi stimul yaradar. Ən azından o pullar Azərbaycanda qalar, xaricə getməz. Burada çox ciddi təşviq proqramlarından biri də azərtəşfiq proqramları ola bilər. Toxumların gətirilməsinə, bu sahədə müəyyən işlərin görülməsinə dövlətin xüsusi diqqəti ola bilər. Yardımlar, uzunmüddətli kreditlər şəklində hökumət dövlət orqanları burada iştirak edə bilər".

**Ekspert bu sahənin çox ciddi və gəlirli bir sahə olduğunu dedi:** "Hollandiya kimi bir ölkənin xarici ticarətinin 10 faizə yaxınını gül və toxumçuluq təşkil edir. Bu da çox böyük bir məbləğdir. Söhbət milyardlarla dollardan gedir. Azərbaycanda da belə bir səviyyəyə çatmaq qısa müddətdə mümkün olmaz. Amma ətraf bazarlarımızda hakim mövqe tutmaq, bu bazarlardan ixracımızı artırmaq üçün istifadə etmək olar. Bu da çox ciddi bir effekt verə bilər"

Gül satanlar da güllərin ən yaxşı satışının sevgililər günü və 8 martda olduğunu deyirdilər. Bir neçə gündən sonra 8 mart Beynəlxalq Qadınlar Günüdür. Bu isə gül satışında canlanmanın olması deməkdir. Bir neçə gül mağazasına baş çəkib həm güllərin qiyməti, həm də haradan gətirilməsi ilə maraqlandıq.

**Gül mağazasına daxil olanda rəngarəng güllər və onların ətri insanı bihuş edirdi. Daha çox isə diqqətimizi bir neçə rəngi özündə birləşdirən qızılgüllər çəkdi. Bu güllərin bir dənəsi 5 manata idi. Qırmızı, ağ qızılgüllər isə 3 manata satılırdı. Satıcı Elnur Məmmədov 8 mart günü qiymətin bahalaşacağını inkar etmədi:** "Bahalaşma olsa da, kəskin olmayacaq. Əvvəlki illərdə gül alanlar çox idi. İndi heç kim maraq göstərmir. Məsələn, indi 3 manata satılan 1 ədəd qızılgülü 8 mart günü 5 manata verə bilərik. Ondan artıq yox".

**Adi günlərdə də gül satışının olduğunu deyən satıcı bəzən gün ərzində bir ədəd də olsa gül sata bilmədiyini, bəzən isə həddən artıq çox gül satdığın deyir:** "Məsələn, elə adamlar var ki, bir gündə 200-300 manatlıq gül alır".

"Nərimanov" metrosu yaxınlığındakı gül mağazasında isə qızılgülün 1 ədədi 5 manata, orxideya 35 manata, ağ zanbaq 7 manata, digər zanbaqlar 6 manata, liliya gülünün bir ədədi 10 manata, gardenza, iris gülü 25 manata, tülpan 3 manata satılırdı. Burada 3 ədəd qızılgülün kiçik buket şəklində hazır bağlaması 40 manata başa gəlir. Nisbətən daha gözəl gül bağlamasının qiyməti isə 100-150 manat arasında dəyişir. Təbii ki, qızılgüllərdən ibarət daha böyük bağlama istəsəniz, bu sizə ən ucuzu 200 manata başa gələ bilər. Qeyd edək ki, güllərin hansı kağızda, səbətdə və dizaynda bəzədilməsi də məbləğə təsir edir. Mağazanın satıcısı martın 8-də qiymətlərin dəyişməyəcəyini dedi. Gül mağazalarında apardığımız müşahidə zamanı məlum oldu ki, yerli güllərin sayı olduqca azdır, güllərin əksəriyyəti Türkiyə, İran və Hollandiyadan gətirilir. Qiymətlərin baha olması isə gülləri dollarla almalarıdır.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 52 (6373) 5 mart 2016



## “iPhone 7S”də sürpriz yenilik

**Apple firmasının hələ təqdim edilməmiş yeniliyi ilə bağlı bəzi detallar üzə çıxıb. Hələlik təqdimat tarixi bəlli olmayan “iPhone 7S” öz möhtəşəm yeniliyi ilə hər kəsi sevindirəcək. Yeni telefon OLED ttps://tr.wikipedia.org/wiki/OLED ekrana sahib olacaq. Smartfonun 2017-ci ildə istehsalına başlanılacağı ehtimal edilir.**

LCD texnologiyasından OLED texnologiyasına keçid edən şirkətin istehsal edəcəyi yeni telefonun ekranı öz sələflərindən fərqli olaraq daha parlaq və nazik olacaq. “Apple”in əvvəllər “Apple Watch”da istifadə etdiyi OLED ekranlar istifadə edilməyən pikselləri örtərək enerjiyə qənaət etmək qabiliyyətinə malikdir. “iPhone 5SE” bir neçə yeni “Apple” məhsulu ilə mart ayının 22-də tanıdılacaq. Əvvəlcə yeniliklərin martın 15-də təqdim ediləcəyi gözlənilirdi. Tədbir zamanı 4 düymlük “iPhone 5SE”, yeni bir iPad və yeni “”Apple Watch ttp://www.apple.com/watch/" nümayiş ediləcək. İndiyədək “iPhone 5SE” olaraq bilinən “iPhone”un adının da dəyişə biləcəyi istisna edilmir. Belə ki, şirkət yeniliyin adındakı “5"in gərəksiz olduğunu düşünür. Bunun üçün də telefonun adı ”iPhone SE" kimi qala bilər. Ehtimal ki, “SE” (“special edition” - “xüsusi buraxılış”) sözlərindən götürülüb.

# Həftədə iki dəfə aspirin için

**Amerikalı alimlərin gerçəkləşdirdiyi araşdırmada həftədə iki dəfə davamlı olaraq içilən aspirinin xərçəng riskini 3% azaltdığı bəlli olub. 32 il müddətində 136 min nəfər üzərində aparılan araşdırmalara görə, həftədə iki dəfə aspirin içənlərin xərçəng riski azalır. Keçmişdə mədə və ya bağırsaq xərçəngindən əziyyət çəkən adamlar həkim məsləhəti ilə aspirin içə bilərlər.**



Massachusetts General Xəstəxanasının həkimi Andrev Çan bağırsaq xərçənginə tutulan xəstələrə aspirin içməyi tövsiyə edirlər. Aspirin qanın qatılığını azaltdığı üçün xərçəng hüceyrələrinə neqativ təsir edir. Az miqdarda olan aspirin belə insan orqanizminə yaxşı təsir edir.

# “Şüşə qadın” tərpənməyə qorxur

**“Hərəkət etməyə qorxuram. Yenə ağrılara məruz qalacağımdan çəkinirəm. Dərdimə çarə tapın, yalvarıram...”**

Hindistanın Karnataka ştatının mərkəzi Banqalorda, yoxsul məhəllələrdən birində yaşayan 27 yaşlı Dhanya Ravi çox nadir xəstəliyə mübtəladır. Yerli sakinlərin “Şüşə qadın” adlandırdıqları Dhanyanın sümükləri çox kövrək olduğundan hərəkət etməyə çətinlik çəkir. Onun sümükləri indiyədək 300 dəfə sınıb. Bu səbəbdən çarpayıdan qalxanda qollarını bağlayır.

Onun ayaqları, qolları və onurğa sütunu fəsadlı, əyri, deformasiyalıdır. 27 yaşı olsa da, xəstəlik səbəbindən inkişaf etməyən və 3-4 yaşlı uşaq boyda olan Dhanyanın mərəzinin müalicəsinin olmadığını deyirlər. Dhanya iki aylıq olanda ona “natamam osteogenez” diaqnozu qoyulub. “Ayda ən azı bir sümüyüm sınır. İndiyədək sümüklərim 300 dəfə sınıb. Ağrıyır, amma dözürəm”, - Dhanya Ravi deyib.





## Xoşbəxtlik də ürəyə zərər imiş

**BBC-nin xəbərinə görə, Zurix Universitetinin alimləri bildiriblər ki, qırıq qəlb sindromu olaraq tanınan “takotsubo kardiomiyopatiyası” adlı xəstəliyin səbəbi xoşbəxtlikdir. Nəticələri “European Heart Journal”da yayımlanan araşdırmada 1750 nəfər iştirak edib.**

Araşdırma zamanı ad günü qeyd edən, uşağını evləndirən, bir dostu ilə 50 il sonra görüşən, komandası qalib gələn və lotereya qazanan insanların ürəyinin normadan çox döyündüyü, nəfəssiz qaldığı məlum olub. Araşdırma qrupunun rəhbəri olan həkim Jelena Ghadri yaxşı və gülüş doğuran hadisələrin “takotsubo kardiomiyopatiyası” adlı xəstəliyi aktivləşdirdiyini bildirib. Bu xəstəlik yaxşı və pis hadisələr zamanı yaranan ürək problemidir. İnsanlar qısamüddətli sinə ağrısı hiss etdikləri zaman infarkt keçirdiklərini düşünürlər.




**QOÇ** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək iqtidarında deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra səfərə çıxın.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı problemləriniz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**QIZ** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**TƏRƏZİ** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**ƏQRƏB** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**OXATAN** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olardı ki, nahardan sonra işə ara verib bir qədər dincələydiniz. Çünki axşam saatlarında astral bədəniniz zəifləyə bilər.

**OĞLAQ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**SUTÖKƏN** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**BALIQLAR** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Selfi çəkərkən özünü vurdu



**Amerikanın Vaşinqton ştatında əlindəki silahı ilə selfi çəkməyə çalışan kişi həyatını itirib. Adı açıqlanmayan 43 yaşlı kişi boş olduğunu düşündüyü silahı ilə özünü başından vurub. Həyatını itirən kişinin sevgilisi gün ərzində bir neçə dəfə silahla selfi çəkdiklərini, lakin şəkil çəkməzdən əvvəl silahların içini boşaltdığını, sonra yenidən doldurduqlarını deyib. Polislər ölümü “qəza” kimi dəyərləndiriblər. “The Washington Post”da yer alan xəbərə görə, ötən il dünyada selfi çəkərkən 27 nəfərin öldüyü açıqlanıb. Ona görə də Hindistanın bəzi yerlərində selfi çəkilişi qadağan edilib.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.